# Bütövləşmiş Azərbaycanın seçimi

*Xalq–dövlət birliyinin növbəti nümayişi*

**"Laçında səsvermə başlayıb", "Şuşada səsverməyə start verildi", "Xankəndidə seçimlər başladı". Dünən səhəri bu xəbər sərlövhələri ilə açmaq qədər gözəl duyğu ola bilməzdi. Bəli, Milli Məclisə növbədənkənar seçkilər böyük uğurla reallaşdı.**

(ardı 5-ci səhifədə)




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 189 (30593) 2 sentyabr 2024-cü il, bazar ertəsi

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Suverenliyimizin təntənəsinə çevrilən tarixi seçkilər



Səhifə ⇨ 2

## Hikmət Hacıyev: Avropa İttifaqının sərhəd missiyasına ehtiyac yoxdur

**Hazırda tərəflər arasında (Ermənistan ilə Azərbaycan) reqlament razılaşdırılıb. Razılaşmaya uyğun olaraq zəmin və çərçivə yaradılır ki, delimitasiya prosesi aparılsın. Qarşılıqlı anlaşma şəraitində proses bundan sonra da ikitərəfli əsasda davam edəcək. Sərhədlərin delimitasiya prosesi sırf ikitərəfli xarakter daşıyır.**



Bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Prosesin iki dövlət arasında sülh, qarşılıqlı anlaşma şəraitində gedişatını nəzərə alaraq hesab edirik ki, artıq Avropa İttifaqının sərhəd missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyət göstərməyinə ehtiyac yoxdur. Bu missiyanın da fəaliyyətinə xitam verilməsinin zamanı yetişib.

Ermənistanın baş naziri Nikol Paşinyanın son fikirlərinə toxunan Prezident köməkçisi deyib: "Ermənistanın baş nazirinin açıqlamalarında kifayət qədər ziddiyyətli, həqiqəti əks etdirməyən məqamlar var. Ermənistan militarizasiya siyasətini həyata keçirir, bu, faktdır. Ermənistanın militarizasiya siyasətini həyata keçirməsində ona bir sıra Qərb ölkələri, xüsusilə Fransa tərəfindən ciddi dəstək verilir. Bu, Cənubi Qafqaz regionunda gərginliyin yaradılmasına xidmət edir.

Azərbaycan işğalçı dövlət olmayıb. Azərbaycan həmişə beynəlxalq hüququn norma və prinsiplərindən çıxış edərək qonşu dövlətlərlə münasibətdə bu meyarı əsas tutub. Amma Ermənistan işğalçı dövlət olub. Biz İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sisteminə baxdıqda görə bilərik ki, işğalçı, təcavüzkar olan çox azsaylı dövlətlər var, onlardan biri də Ermənistandır.

İraq-Küveyt müharibəsindən sonra İraq silahlı qüvvələrinin inkişafı ilə bağlı müəyyən məhdudiyyətlər olduğunu xatırladan Prezidentin köməkçisi deyib: "Hesab edirik ki, bu kimi proporsional məhdudiyyətlər Ermənistan silahlı qüvvələrinə də tətbiq olunmalıdır".

Ermənistan baş nazirinin Minsk qrupunun ləğvi məsələsi ilə bağlı şərhində yenə də yalana və təhriflərə yol verdiyini vurğulayan H.Hacıyev bildirib: "Minsk qrupunun ləğv edilməsinin vaxtı çoxdan yetişib, belə bir təsisata heç bir lüzum yoxdur. Ermənistanın bu təsisatı gündəmdə saxlaması və bu istiqamətlə səylərini davam etdirməsi ona dəlalət edir ki, İrəvan münaqişənin bitməməsi təəssüratını yaradaraq Qərbdə onu dəstəkləyən tərəfdarları ilə müəyyən təsir vasitəsini əlində saxlamağa cəhd göstərir".

Paşinyanın Ermənistan ilə Azərbaycan konstitusiyalarının müqayisəsi ilə bağlı fikirlərinə də toxunan Prezidentin köməkçisi deyib: "Ermənistan konstitusiyasında müstəqillik haqqında akta uyğun olaraq Azərbaycana qarşı ərazi iddiaları, yəni, Qarabağın Ermənistana birləşdirilməsini ehtiva edən məqam hələ də qalmaqdadır. O müddəa dəyişdirilməyincə iki dövlət arasında sülh müqaviləsinin əldə olunmasında ciddi problemlər görürük. Ermənistan cəmiyyəti özü də konstitusiyanı dəyişdirərək məhz o müddəanı, o istinadı oradan götürərək sülh şəraitində yaşamaq istəyini bir daha təsbit etməlidir. Amma Azərbaycan Konstitusiyasında heç bir dövlətə qarşı ərazi iddiaları olmayıb və bu, Azərbaycan xalqının haqlı iradəsini əks etdirən bir sənəddir. Bu müqayisəni də biz yalnız söz oyunu kimi dəyərləndiririk. Ona görə də Ermənistan baş nazirinə və siyasi rəhbərliyinə tövsiyə ondan ibarətdir ki, bu kimi söz oyunlarındansa, real sülh gündəliyinin irəli aparılması, məhz region dövlətlərinin iştirakı ilə sülh gündəliyinin dəstəklənməsi istiqamətində addımlar atsınlar".

**XQ**

## Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərin ilkin nəticələrini açıqlayıb




**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov Milli Məclisə seçkilərin ilkin nəticələrinə dair mətbuat konfransı keçirib.**

Məzahir Pənahov 125 dairə üzrə 5 min 895 məntəqənin nəticələrinin, yəni məntəqələrin 91 faizinin məlumatlarının artıq Mərkəzi Seçki Komissiyasına daxil olduğunu bildirib.

Sonra MSK sədri seçkilərin ilkin nəticələrinə görə liderlik edən namizədlərin siyahısını diqqətə çatdırıb.

1 saylı Şərur-Sədərək seçki dairəsi - **Əsgərov Ziyafət Abbas oğlu** – 13 min 591 səs (67,8 faiz).

2 saylı Şərur-Kəngərli seçki dairəsi - **Novruzov Siyavuş Dünyamalı oğlu** - 14 min 36 səs (66,3 faiz).

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi - **Möhbalıyev Səttar Suliddin oğlu** – 10 min 1 səs (55,8 faiz).

4 saylı Naxçıvan şəhər seçki dairəsi - **İbrahimov Eldar Rza oğlu** – 11 min 908 səs (68,4 faiz).

5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsi - **Həmzəyeva Ülviyyə Tapdıq qızı** – 8 min 137 səs (55  faiz).

(ardı 9-cu səhifədə)

## ATƏT DTİHB-nin anti-Azərbaycan qərəzi

### *Yaxud torbadan quyruğu görünənlərin "hesabat"ı*




**Belə məlum olur ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı hesabatını Bakıya gəlməmiş hazırlayıb. Belə sadə və məntiqi qənaətə gəlməyə bu fakt dəstəvuz verir ki, dünən səsvermə prosesi hələ başa çatmamış Avropadan Azərbaycana təşrif buyurmuş "haqq müdafiəçiləri" nə az, nə çox – düz 56 bənddən ibarət hesabat yayıblar.**

Özəl mənbələrdən əldə edilərək ictimailəşdirilən bu sənədin seçkilərdən xeyil əvvəl tərtib olunduğuna və ATƏT-in başbilənləri tərəfindən təsdiqləndiyinə zərrə qədər şübhə ola bilməz. Axı, "beynəlxalq hüquqa və demokratik prinsiplərə" söykənərək bu həcmdə sənədin ərsəyə gətirilməsindən ötrü bir dəstə mütəxəssis neçə gün çalışmalıdır.

Sözün düzü, ATƏT DTİHB-nin seçkilərlə bağlı Azərbaycana sataşdığı birinci dəfə deyil. Məgər biz nizamnaməsində qeyd olunmuş "təhlükəsizlik" və "əməkdaşlıq" missiyasını "kollektiv Qərbin" anti-Azərbaycan, ermənipərəst fəaliyyəti ilə səhv salan bu qurumun sifarişləri haradan aldığını bilmirik? Bilirik: Brüsseldə mənzil salmış və Fransanın dominantlıq etdiyi Avropa İttifaqından, onun parlamentindən və bir də son vaxtlar sıx əməkdaşlıqda bulunduğu Vaşinqtondan.

5 aprel Brüssel görüşündə üçtərəfli separat razılaşmaya imzalarını atanların (Brüssel–İrəvan–Vaşinqton) ölkəmizə qarşı intensivləşən siyasi–ideoloji təzyiqləri fonunda ATƏT-in bu hesabatına təəccüblənməli deyilik. Bunların hamısı eyni nohurdan su içən, fürsət düşən kimi sancmağa hazır zəhərli ilanlar kimidir. Bu dəfə ATƏT DTİHB-ni qabağa veriblər.

Bəs, bu psevdo-haqq müdafiəçiləri hesabatlarında nə yazır? "Seçkilərin hüquqi bazası demokratik seçkilər üçün əlverişli deyil", "Konstitusiya və digər qanunların icazə verdiyi sərbəst toplaşmaq və ifadə azadlığı məhdudlaşdırılıb", "seçkilər beynəlxalq standartlara və ATƏT-in öhdəliklərinə uyğun gəlmir"...

Heç bir faktın göstərilmədiyi, hüquqi əsaslandırmanın aparılmadığı sənəddə deyilir ki, MSK daxil olan şikayətlərin əksəriyyətinə mahiyyəti üzrə baxıb, "amma dəvət olunmuş tərəflərin arqumentləri heç vaxt nəzərə alınmayıb". MSK, guya, əvvəlcədən hazırlanmış qərarlar qəbul edərək şikayətçiləri qanunla, ATƏT-in öhdəliklərindən və beynəlxalq təcrübədə nəzərdə tutulmuş prosedur təminatlarından məhrum edib. Bundan sonra irəli sürülən "ittihamlardan" xoruzun quyruğu görünməyə başlayır. Əslində, "quyruq" bir neçə gün öncə bəzi media qurumları ATƏT-in Azərbaycandakı növbədənkənar parlament seçkiləri ilə bağlı hesabatının artıq hazır olması barədə məlumatları yayanda görünmüşdü. Pişiyin torbaya harada və kim tərəfindən salındığı məsələsinə qayıdacağıq.

İndi isə görünən reallıqdan bəhs edək. Axı, Azərbaycan seçkilərə hazırlıq dövrünü və səsvermə prosesini yaxından izləmək üçün hamıya hər cür şərait yaratdı. Dünyanın 43 ölkəsindən və 24 beynəlxalq təşkilatdan ümumilikdə 228 beynəlxalq müşahidəçi MSK tərəfindən qeydə alındı. Onlar üçün yaradılan şərait Azərbaycanda seçki mühitinin demokratikliyindən xəbər verir. Milli Məclisə seçkiləri izləmək üçün qeydiyyatdan keçən qurumlardan biri də ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidə missiyası idi. ATƏT bir qayda olaraq üzv ölkələrdəki seçkilərə DTİHB-ni göndərir və onun yekun rəyini əsas götürür. Amma reallıq onu deyir ki, DTİHB-nin yerinə yetirdiyi "müşahidə" missiyası formal xarakter daşıyır. Bu zaman onun "yekun rəyi" Vaşinqton və "kollektiv Qərb" üçün təzyiq "alətinə" çevrilir. Bunları bilən siyasi ekspertlər üçün DTİHB-nin hesabatlarının çox vaxt digər beynəlxalq müşahidəçilərin rəyləri ilə ziddiyyət təşkil etməsi təəccüblü deyil. Sınaqdan çıxarılmış "təcrübə" bu dəfə Azərbaycanda parlament seçkilərində özünün növbəti isbatını tapmış oldu.

ATƏT-in bundan əvvəlki qərəzli bəyanat və açıqlamalarının təkrarı, "şparqalkası" adlandırılmağa layiq hesabatında "Azərbaycanda siyasi aktorların, hüquq müdafiəçilərinin, vətəndaş cəmiyyəti fəallarının, akademiklərin və jurnalistlərin həbslərinin seçkiqabağı dövrdə də davam etdiyi" qeyd olunur.

Bu məqamda "Stop!" işarəsindən istifadə etməyə məcburuq. Özəl mənbə bildirir ki, hesabatın yekun variantı neçə gün əvvəl Vaşinqtondan göndərilib və əslində, onun sabah açıqlanacağı gözlənilirdi. Artıq pişiyin torbaya harada və kim tərəfindən salındığı sualına avtomatik cavab gəlir...

Güman edirik ki, rəsmi Bakının Ağ evə deməyə 56 bənddən də artıq sözü olacaq.

***XQ-nin analitik qrupu***

# Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs veriblər



**Sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs veriblər.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Sonra birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs verdilər.

Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 579 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 8 namizəd mübarizə aparıb.





# Prezident İlham Əliyev Serbiyanın xarici işlər nazirini qəbul edib



**Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasının xarici işlər naziri Marko Curiçi qəbul edib.**

Serbiyanın xarici işlər naziri Prezident Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı uğurlar arzulayan Marko Curiç Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd etdi.

Serbiyanın xarici işlər naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, ölkəmizin qlobal müstəvidə yeni tərəfdaşlıq şəbəkələri və münasibətləri qurduğunu vurğuladı.

Prezident İlham Əliyev Aleksandar Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident Vuçiçlə həm Azərbaycanda, həm də Serbiyada görüşlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı vurğuladı ki, onun Serbiya Prezidenti ilə olan dostluq və tərəfdaşlıq əlaqələri ikitərəfli münasibətlərimizin inkişafına ciddi təkan verir.

Serbiyanın Azərbaycanın dostu və strateji tərəfdaşı olduğunu, ölkələrimiz və xalqlarımız arasında səmimi münasibətlərin qurulduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, bunlar əməkdaşlığın bütün sahələrdə inkişafında özünü göstərir. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanla Serbiya arasında dostluq əlaqələri təkcə ikitərəfli münasibətlər baxımından deyil, eyni zamanda, regional müstəvidə Balkan və Qafqaz regionları arasında əməkdaşlığın inkişafına təkan verilməsi baxımından çox vacib xarakter daşıyır.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan öz suverenliyinin və ərazi bütövlüyünün təmin olunması prosesində ikili standartlar, ədalətsizlik, beynəlxalq hüququn norma və prinsiplərinə zidd yanaşmalarla üzləşib. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan öz iradəsi ilə ərazi bütövlüyünü və suverenliyini tam şəkildə təmin edib.

Görüşdə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Azərbaycanın enerji resurslarının digər Avropa ölkələrinə, o cümlədən Balkan ölkələrinə ixracında Serbiyanın artıq tranzit rolunu oynadığı qeyd edildi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi, xüsusilə ərazi bütövlüyü və suverenlik məsələlərində prinsipial yanaşmaları bir daha vurğulandı.

Söhbət zamanı əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

# Baş nazir Əli Əsədov seçki məntəqəsində

**Sentyabrın 1-də ölkəmizin bütün suveren ərazisində VII çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilib.**



Səhər saatlarından 7 saylı Səbail rayon seçki dairəsinin 2 saylı seçki məntəqəsində də səsvermə seçicilərin fəal iştirakı ilə keçirilib.

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bu seçki məntəqəsinə gələrək səs verib.

Məntəqədə 1343 seçici qeydiyyata alınıb.

Qeyd edək ki, ilk dəfədir Azərbaycanın bütün suveren ərazilərində Milli Məclisə seçkilər keçirilib. Növbədənkənar seçkilər 6478 seçki məntəqəsində təşkil olunub. Budəfəki seçkilərdə 125 yer uğrunda 990 namizəd mübarizə aparıb. Parlament seçkilərində səsvermə hüququna malik vətəndaşların sayı 6 milyon 421 min 960 nəfər olub.

İşğaldan azad olunmuş ərazilərdə 54 seçki məntəqəsi yaradılıb.

Seçki prosesini 598 beynəlxalq müşahidəçi izləyib. Yerli müşahidəçilərin sayı isə 112 min 749 nəfər olub. Səsvermə saat 19:00-da başa çatıb.

**XQ**

# Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Mirziyoyevə

**Hörmətli Şavkat Miromonoviç,**
**Əziz Qardaşım,**

1 Sentyabr – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün qardaş Özbəkistan xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin qətiyyətli liderliyiniz və çoxşaxəli fəaliyyətiniz sayəsində sosial-iqtisadi inkişaf yolu ilə dinamik şəkildə irəliləyən Özbəkistan mühüm uğurlara və nailiyyətlərə imza atmışdır. Bütün bunların təməlində Sizin yorulmaz əməyiniz, rəhbərliyiniz altında aparılan dövlət siyasətinə xalqınızın böyük etimadı və dəstəyi dayanır. Biz qardaş ölkənizin bütün uğurlarına, iqtisadi yüksəlişinə, dünyada və regionda gündən-günə artan nüfuzuna sevinir, bundan qürur hissi duyuruq.

Bir neçə gün əvvəl gözəl ölkənizə həyata keçirdiyim dövlət səfəri Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafına yeni təkan vermişdir. Dövlətlərarası əməkdaşlığımızı daha da dərinləşdirmək əzminizi yüksək qiymətləndirir, müzakirə etdiyimiz planları ən qısa zamanda reallaşdıracağımıza əminliyimi ifadə edirəm.

Fəxr ilə qeyd etmək olar ki, möhkəm dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Özbəkistan əlaqələri hər keçən gün daha da inkişaf edir və yeni məzmunla zənginləşir. İkitərəfli əlaqələrimizin bütün sahələrdə genişlənməsi və dərinləşməsi möhkəm siyasi iradəyə, qarşılıqlı inam və etimada əsaslanır.

İntensiv xarakter daşıyan ali səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin nəticəsi olaraq əldə olunmuş mühüm razılaşmalar, müəyyən edilmiş yeni tərəfdaşlıq istiqamətləri, imzalanmış çoxsaylı sənədlər strateji tərəfdaşlığımızın yüksələn xətlə və hərtərəfli inkişaf etdiyinin əyani göstəricisidir.

Əminəm ki, Azərbaycan-Özbəkistan dostluğunun və qardaşlığının möhkəmləndirilməsi, əməkdaşlığımızın daha da genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, şərəfli və məsul fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 avqust 2024-cü il**

# Slovakiya Respublikasının Prezidenti Zati-aliləri cənab Peter Pelleqriniyə

**Hörmətli cənab Prezident,**

Slovakiya Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu gün Azərbaycan ilə Slovakiya arasında əlaqələr dinamik inkişaf yolundadır. Enerji sahəsində səmərəli birgə fəaliyyətimizin digər sahələr və istiqamətlər üzrə də uğurla davam etdiriləcəyinə əminliyimi ifadə edirəm. İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq və mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə Azərbaycan-Slovakiya dostluq əlaqələrinin inkişafına, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 avqust 2024-cü il**

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev səsvermədə




**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev sentyabrın 1-də 16 saylı Yasamal ikinci seçki dairəsinin 34 saylı seçki məntəqəsində səs verib.**

Bu seçki məntəqəsində də yüksək seçici fəallığı müşahidə olunub.

Qeyd edək ki, ilk dəfədir Azərbaycanın bütün suveren ərazilərində Milli Məclisə seçkilər keçirilib. Növbədənkənar seçkilər 6478 seçki məntəqəsində təşkil olunub. Budəfəki seçkilərdə 125 yer uğrunda 990 namizəd mübarizə aparıb. Parlament seçkilərində səsvermə hüququna malik vətəndaşların sayı 6 milyon 421 min 960 nəfər olub.

İşğaldan azad olunmuş ərazilərdə 54 seçki məntəqəsi yaradılıb.

Seçki prosesini 598 beynəlxalq müşahidəçi izləyib. Yerli müşahidəçilərin sayı isə 112 min 749 nəfər olub. Səsvermə saat 19:00-da başa çatıb.

**AZƏRTAC**

# “Azadlıq radiosu” qərəzli manipulyasiya metoduna əl atır

**“ABŞ Konqresi tərəfindən maliyyələşən “Azadlıq radiosu” Azərbaycanda Milli Məclisə növbədənkənar seçkilərlə bağlı ictimai rəyi manipulyasiya etməyə yönəlmiş materiallar yayımlamaqdadır. Təəssüflə bildiririk ki, bu məlumatlar “jurnalist qeydləri” başlığı altında paylaşılır”.**

Bu barədə Medianın İnkişafı Agentliyinin yaydığı məlumatda bildirilib.

Bildirilib ki, qanunvericiliyin tələbinə uyğun olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində akkreditasiyadan keçmiş bütün xarici media subyektlərinin seçkiləri işıqlandırmaq üçün Mərkəzi Seçki Komissiyasına müraciətinə müsbət cavab verilib. Lakin “Azadlıq Radiosu”nun bununla bağlı hər hansı müraciəti olmayıb: “Azadlıq Radiosu”nun mənbəyi bilinməyən, qərəzli məlumatları anonim “jurnalist qeydi” altında paylaşması jurnalist adından sui-istifadə halıdır və birmənalı olaraq media etikası prinsiplərinə ziddir. Qeyd olunanlar fonunda medianın manipulyasiya metodu ilə ictimai rəyi çaşdırmaq cəhdlərini yolverilməz hesab edir və qınayırıq”müraciətdə əlavə edilib”.

# ABŞ müşahidəçisi: Seçici razılığı ən yaxşı meyardır

**Biz ölkə üzrə 1019 seçki məntəqəsində fəaliyyət göstərmişik. "Exit-poll"da iştirak edən respondentlər arasında suallarımızı cavablama istəyi çox yüksək səviyyədə idi. Mən seçicilərin istəklə suallara cavab verməsini nəzərdə tuturam.**



Bunu ABŞ-nin "Oracle Advisory Group" təşkilatının təmsilçisi George Birnbaum növbədənkənar parlament seçkiləri ilə əlaqədar "exit-poll"un nəticələri barədə danışarkən deyib.

O qeyd edib ki, Qarabağda da "exit-poll" keçiriblər və seçicilər sualları aktiv şəkildə cavablandırıblar: "Prezident seçkilərində olduğu kimi bu seçkidə də respondentlərin arasında "exit-poll" da iştirak etmək istəyi çox yüksək idi".

**Anar ƏLİ**
**XQ**

# IPC-nin Baş katibi: Seçkilər yüksək səviyyədə keçirildi




**Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərini müşahidə etməkdən məmnuniyyət duyuram. Beynəlxalq Parlament Təşkilatı (İPC) olaraq Azərbaycan hökumətinə bu səsvermə prosesinə yüksək səviyyədə hazırlaşdığı üçün təşəkkür edirəm. Əminliklə deyə bilərik ki, builki parlament seçkiləri yüksək səviyyədə keçirildi.**

Bu barədə Beynəlxalq Parlament Təşkilatının Milli Məclisə keçirilən növbədənkənar seçkilərlə bağlı mətbuat konfransında IPC-nin Baş katibi Sitara Ayaz deyib.

O bildirib ki, bu gün səhər saat 10:00-dan etibarən Bakıda bir sıra məntəqələrdə olublar. "Bakılıların səsvermə prosesində fəallığını müşahidə etdik", - deyən Baş katib qeyd edib ki, seçkilər heç bir məcburiyyət və təzyiq olmadan keçdi. Seçkilərdə bütün partiyalardan üzvlər şəffaf şəkildə təmsil olunub.

"Seçki məntəqələrindəki heyət yaxşı hazırlaşmışdı. Baş çəkdiyimiz 10 məntəqədən 8-də ingilisdilli mütəxəssislər var idi. Əlillərin səs verməsi üçün də hər cür şərait yaradılmışdı. Saat 19:00-da növbəti seçki məntəqəsinə baş çəkdik. Sevindirici haldır ki, hələ də səsverməyə gələn insanlar var idi. Seçki prosesinin belə yüksək səviyyədə təşkili və bizi müşahidəçi qismində dəvət etdikləri üçün Milli Məclisə təşəkkürümü bildirmək istərdim".

Parlamentlərarası İttifaqın sabiq prezidenti Duarte Paçeko isə deyib ki, baş çəkdikləri bütün seçki məntəqələrində şəffaf proses mövcud idi. "Səsvermə prosesində heç bir təzyiq və məhdudiyyət yox idi. Bunu digər ölkələrə nümunə göstərmək istərdim", – deyə Parlamentlərarası İttifaqın sabiq prezidenti vurğulayıb.

# Moldovalı parlamentari: Seçkinin hüquqi bazası mükəmməldir

**Mən Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərində iştirak etdim. Bu, mənim artıq ikinci təcrübəmdir. Seçkilər zamanı bütün nüanslara diqqət yetirməyə çalışdım.**




Bu sözləri Moldova parlamentinin deputatı Vitali Jakot parlament seçkilərinin ilkin yekunları ilə bağlı keçirilən mətbuat konfransında deyib.

Onun sözlərinə görə, seçki məntəqələrinin sədrləri və üzvlərinin şəffaf fəaliyyət göstəriblər. "Azərbaycan Moldova üçün strateji tərəfdaşdır. Mən həm Bakı, həm də Bakıətrafı qəsəbələrdə seçkiləri müşahidə etdim. Seçki prosesi axıcı şəkildə davam etdi. Vətəndaşlar çox rahat şəkildə bizimlə ünsiyyətdə oldular. Onlar səs verəcəkləri yerlər haqqında məlumatlı idilər. Mənimlə ünsiyyətdə olan hər kəs prosesin rəqəmsallaşdırılmasının arzuedilən olduğunu bildirdilər. Bu da maarifləndirici oldu. Ümumi vəziyyət çox sakit idi. Hər şey yüksək səviyyədə planlaşdırılmışdı",- deyə deputat əlavə edib.

# Aşkarlıq və şəffaflıq imtahanı



**Biz Bakıda 10 seçki məntəqəsində müşahidə apardıq. Bütün seçki məntəqələrində şəffaf və təzyiqsiz şəkildə səsvermə keçdi. Hər kəs öz namizədinə rahatlıqla səs verə bilirdi.**

Bu sözləri Ukrayna parlamentinin altı üzvünün iştirakı ilə keçirilən mətbuat konfransında parlamentin üzvü Volodimir Kreidenko deyib.

"Bizim üçün əsas məsələ hər şeyin beynəlxalq hüquq çərçivəsində reallaşması idi. Biz namizədləri qiymətləndirə bilmərik, önəmli olan seçilən deputatlarla gələcək əməkdaşlığımızdır. Ümid edirik ki, yeni parlament üzvləri ilə əlaqələrimiz yüksək səviyyədə davam edəcək", – deyə o əlavə edib.

**XQ**




# Britaniya deputatı: Doğma torpaqlarda yenidən səs vermək xoşbəxtlikdir

**Parlamentari olaraq Azərbaycan üzrə bütün partiyaların dostluq qrupunun üzvüyəm. Biz müntəzəm görüşlər keçirir, Azərbaycanla bağlı məsələləri və ölkələrimiz arasında münasibətləri müzakirə edirik.**

Bu barədə Birləşmiş Krallıq parlamentinin Lordlar Palatasının üzvü Qurban Hussain Azərbaycanda keçirilən növbədənkənar seçkilərə dair mətbuat konfransında deyib.

Şuşada və Füzulidə seçki prosesini yaxından izlədiyini deyən qonaq əlavə edib: "Müşahidələrimə əsasən deyə bilərəm ki, Azərbaycandakı səsvermə sistemi və prosesi Birləşmiş Krallıqdakı ilə eynidir. Seçicilər sərbəst şəkildə şəxsiyyətlərini təsdiq edən sənədlə seçki məntəqəsinə yaxınlaşır və kabinələrdə gizlin səs verirdilər. Regiondakı insanlar da çox xoşbəxt görünürdülər. Azərbaycan xalqı - Qarabağdakı keçmiş məcburi köçkünlər 30 ildən sonra yenidən doğma torpaqlarında səsvermə prosesində iştirak etdikləri üçün xoşbəxtdirlər. Bunu görmək mənim üçün də çox xoş oldu. Seçkilərdə davamlı iştirak da diqqətimdən qaçmadı. Bu, Birləşmiş Krallıqdan kənarda izlədiyim ilk seçki prosesi idi və mən nə ilə qarşılaşacağımı bilmirdim. Lakin seçki prosesi ilə bağlı hər şey eynilə Birləşmiş Krallıqdakı kimi keçdi".

# Rumıniyalı müşahidəçi: Media prosesi maneəsiz izlədi




**Yekun nəticə onu deməyə imkan verir ki, seçki məntəqələrində hər şey qrafikə uyğun aparıldı. Müşahidə etdik ki, media nümayəndələri heç bir maneə olmadan prosesi izləyə bilirdilər. Onların sərbəst hərəkətində heç bir məhdudiyyət yox idi.**

Bu fikirləri sentyabrın 1-də keçirilən növbədənkənar parlament seçkilərinin ilkin yekunları ilə bağlı ölkəmizdə səfərdə olan Rumıniya Senatının müşahidə missiyasının rəhbəri Kristian-Ogustin Nuçulesku-Tagarlaş səsləndirib.

Rumıniya Senatının Rumıniya-Azərbaycan dostluq qrupunun üzvü kimi seçkiləri izlədiyini diqqətə çatdıran qonaq seçki məntəqələrinin hərtərəfli şəraitlə təmin olunduğunu qeyd edib.

# Beynəlxalq müşahidəçi: Seçki məntəqələri canlı axın idi




**Mən Rusiya Federasiyasının Tümen vilayətindən Müstəqil Dövlətlər Birliyinin (MDB) missiyasını təmsil edirəm. Cümə günündən Azərbaycandayıq. Bu müddət ərzində biz artıq MDB missiyasının qərargahında görüş keçirməyə nail olmuşuq, sorğu vərəqələri, seçki məntəqəsində necə işləmək barədə tövsiyələr almışıq və Lənkəran şəhərində fəaliyyət göstəririk.**

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Müstəqil Dövlətlər Birliyindən olan beynəlxalq müşahidəçi, Rusiya Federasiyası Tümen vilayəti Seçki Komissiyasının sədri İqor Xalin məlumat verib.

"Biz çox dəqiq və mütəşəkkil işləyən seçki məntəqələrini görə bildik. Bu gün seçki məntəqələrinin açılışında olduq və gün ərzində 10-a yaxın seçki məntəqəsində müşahidələr apardıq. İnsanlar istəklə, xoş əhvali-ruhiyyə ilə səsverməyə gəlirlər. Məntəqə komissiyalarında olan həmkarlarımız çox peşəkarcasına işləyirlər. Seçki bülletenləri doldurulur və gizli səsverməyə riayət olunur. Həmkarlarımıza Azərbaycan Respublikasının parlamentinə seçkilərdə uğurlar arzulayırıq", – deyə beynəlxalq müşahidəçi vurğulayıb.

# Paytaxt rayonlarında Milli Məclisə seçkilər

## Səbail

**7 saylı Səbail seçki dairəsinin 23 saylı məntəqəsi Bibiheybətdəki 6 saylı peşə məktəbində yerləşir. Məntəqənin katibi Rəmşad Mehdiyev dedi ki, dairə üzrə 8 nəfərin Milli Məclisin deputatlığına namizədliyi qeydə alınıb. Onların hər birinin seçkiqabağı təbliğat aparması üçün normal şərait yaradılıb. Bu gün seçicilər ən layiqli namizədi müəyyənləşdirmək üçün seçimlərini edirlər.**

Məntəqədə yüksək seçici fəallığı müşahidə olundu. İnsanların əhvali-ruhiyyəsi yüksək idi. Builki parlament seçkilərinin Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması şəraitində keçirilməsi seçicilərdə iftixar hissi doğurub.

24 saylı seçki məntəqəsi isə 51 saylı tam orta məktəbdə yerləşir. Məntəqənin sədri Dilarə Kətənova dedi ki, burada 1457 seçici qeydiyyata alınıb. Seçicilər öz vətəndaşlıq borclarını həvəslə yerinə yetirirlər. Seçki prosesini 16 müşahidəçi izləyir. Müstəqil müşahidəçi Ədilə Quliyeva bildirdi ki, hələlik heç bir qanun pozuntusu yoxdur.

Məntəqənin qarşısında gənc bir qız "exit-poll" aparırdı. Nigar Nəsirova Bakı Dövlət Universitetinin sosiologiya fakültəsinin 3-cü kurs tələbəsidir. O, ölkəmizdə vüsət alan vətəndaş cəmiyyəti quruculuğunda fəal iştirak edir.

## Binəqədi

**8 saylı Binəqədi birinci seçki dairəsinin 4 saylı məntəqəsində 1200-ə yaxın seçici qeydə alınıb. Məntəqədə seçicilərin sərbəst, maneəsiz səs vermələri üçün hər cür şərait yaradılıb. Komissiya üzvlərinin rahat işləmələri, müşahidəçilərin seçki prosesini aydın izləyə bilmələri üçün də nə lazımdırsa edilib.**

Məntəqə seçki komissiyasının sədri Fəridə Yunusova bildirdi:

– Məntəqəmizdə səs verəcək seçicilərin sayı 1198-dir. Ərazidə yaşı 80-dən yuxarı olan 21 seçici qeydə alınıb. 91 yaşılı Əjdər Məmmədov evinə qutu aparılmasına razı olmadı. Seçkinin ab-havasını duymaq, hamı ilə bir yerdə olmaq istədiyini bildirdi və gəlib məntəqədə səs verdi. Əlil və xəstə seçicilərin mənzillərinə səyyar seçki qutuları göndəririk. Yaxınlıqda yerləşən "Əlillər evi" adlanan 16-cı binanın sakinləri də bu gün burada səs verirlər.

Məntəqədə səsverməni müxtəlif partiyaların, qeyri hökumət təşkilatlarının nümayəndələri və öz təşəbbüsü ilə iştirak edən 16 müşahidəçi izləyirdi. Onlara yaxınlaşıb seçki prosesinin necə getdiyi ilə maraqlanırıq.

"Ümid" partiyasının təmsilçisi Gülşən Ağayeva bildirdi:

– Hələlik heç bir qanun pozuntusu qeydə almamışam. Seçicilər bülletenlərini götürüb kabinədə inandıqları namizədi özləri seçir.

*

**8 saylı Binəqədi birinci seçki dairəsinin Bakı Humanitar Kollecində yerləşən 34 saylı məntəqəsi paytaxtın iri yaşayış massivlərindən olan 8-ci mikrorayonda yerləşir. Səhər tezdən sakinlər axın-axın vətəndaş borcunu yerinə yetirməyə gəlmişdilər. Burada da taleyüklü seçim prosesi ahəngdarlıqla davam edirdi.**

Bu vaxt filippinli müşahidəçilər içəri daxil oldular. Onlar seçicilərin baş barmağının işarələnməsindən tutmuş, səsverməyə gələn çoxsaylı adamların maneəsiz olaraq prosesə qoşulmasına, gizli seçim etməsinə və aşkarlığı tamamlayan şəffaf qutularadək bütöv bir ahəngdarlıq təşkil edən "seçki konveyeri"nə heyranlıqla diqqət yetirib məmnunluqlarını bildirdilər. Sonra onlar yerli müşahidəçilərə yaxınlaşıb onların rəy və qeydləri ilə də maraqlandılar. 10-dan artıq partiya və QHT təmsilçisi, müstəqil ekspertlər prosesin normal, pozuntu baş vermədən getdiyini söylədilər.

Uzaq Filippindən gəlmiş Yamo Bendell və Varner Karl Andolena Azərbaycandakı indiki parlament seçkisinin əvvəlkilərdən nə ilə fərqləndiyi ilə də maraqlandılar.

**Mərkəzi Seçki Komissiyasının müşahidəçisi, Yeni Azərbaycan Partiyası Binəqədi rayon seçki qərargahının üzvü, ixtisasca jurnalist olan Rəfiqə Məsud müşahidəçi həmkarlarından bu suala özünün əhatəli cavab verməsinə icazə alıb bildirdi:**

– Mən müstəqillik dövründə ölkəmizdə keçirilən prezident, parlament seçkilərinin hamısında müşahidəçi olduğumdan bu sual mənə doğmadır. Azəraycanda 33 ildə keçirilən seçkilərin mükəmməllik dinamikası yüksəlişlə müşayiət olunub. Təcrübə daim artıb, hüquqi baza təkmilləşib. Bu seçkilərin hamısı xalqın iradəsini ifadə edib. Seçkilərin nəticələri ölkəmizi demokratik yolla irəli aparıb. Azərbaycan Ulu öndər Heydər Əliyevin yaratdığı əsaslarla dirçəlib, inkişaf yoluna çıxıb. Prezident İlham Əliyev hərtərəfli tərəqqini təmin etməklə ölkəmizi regionun lider dövlətinə çevirib.

Bütün bunlar o deməkdir ki, ötən seçkilərdə xalqımız onun maraqlarını yüksək səviyyədə ifadə edən liderləri və deputatları düzgün seçib. Belə seçim illər keçdikcə daha yüksək səviyyəyə qalxıb. Lakin təcavüzkar Ermənistanın Qarabağda yaratdığı separatçı hərbi xunta müstəqillik illərində Azərbaycanın suverenliyinə qənim kəsilmişdi. Seçki prosesi də bu münaqişədən ciddi zədə almışdı. Bölgənin yerli əhalisi vilayətdən vəhşiliklə qovulmuş, erməni icması isə quldurların əsarətində qalmışdı. Buradakı oyuncaq rejimin keçirdiyi əsassız, saxta seçkilər Azərbaycanın suverenliyinə zərbə və xalqımıza xəyanət idi.

Bu seçkilər Azərbaycanın hər yerində keçirilir. Qarabağdan qovulmuş əhalinin xeyli hissəsi 34 ildən sonra bu dəfə öz yurdunda səs verir. Mükəmməlliyi və bütün ölkəmizi əhatə etməsi ilə budəfəki seçki bütün əvvəlkilərdən yüksəkdə dayanır. Bu, ölkəmizin demokratik inkişafında əldə edilmiş tarixi uğurdur.

Filippinli müşühidəçilər diktofonlarına da yazdıqları bu məlumatdan çox məmnun oldular.











## Nəsimi

**21 saylı Nəsimi – Binəqədi seçki dairəsində seçicilərin sayı 33 min 833 nəfərdir. Dairə üzrə məntəqələrin sayı 37-dir. Onlardan 23-ü Nəsimi, 14-ü Binəqədi rayonunun ərazisindədir.**

DSK sədri Çingiz Dadaşov "XQ"-ya bu açıqlamasında onu da bildirdi ki, seçkilərdə şəffaflığın və aşkarlığın təmin edilməsi üçün məntəqə komissiyalarında hər cür şərait yaradılıb: "Bütün məntəqələr seçicilərin rahat və şəffaf şəkildə səs vermələri, komissiya üzvlərinin, eləcə də müçahidəçilərin, namizədlərin nümayəndələrinin normal fəaliyyəti üçün lazımi şərait və zəruri avadanlıqlarla təchiz olunub. Seçki məntəqələrinin 12-də veb-kamera quraşdırılıb".

6 saylı məntəqədə səs verən tələbə Hikmət Yaqubov Qarabağ Universitetinin təsis olunmasından çox sevindiyini böyük məmnuniyyətlə qeyd etdi və təhsildən sonra Xankəndiyə getmək istədiyini söylədi.

Belə bir mütəşəkkillik seçicilərin demokratik prosesə olan marağını və vətəndaş cəmiyyətinin inkişafına verdikləri əhəmiyyəti nümayiş etdirir. Seçkilərin bu cür fəallıqla keçməsi, demokratik cəmiyyətin formalaşmasında mühüm addımlardan biri kimi dəyərləndirilir və ölkənin gələcək inkişafı üçün əhəmiyyətli bir hadisə sayılır. Müşahidəçilər isə bildirdilər ki, məntəqədə heç bir qanunqeydə alınmayıb. Bu, məntəqədə səsvermənin tam qaydasında, sakit və təhlükəsiz şəraitdə keçirildiyini göstərirdi.

Əslən Qərbi Azərbaycandan 79 yaşlı seçici Xanımgül Əbdüləzizova bizimlə söhbətində dedi ki, daşınan qutuya ehtiyac duymadan özü məntəqəyə gəlib və namizədinə səs verib:

– Bu, mənim doğma Vətənimə, xüsusilə də ölkə başçısına olan sevgimdən irəli gəlir. Qarabağ Zəfərini gördüyüm kimi, doğma dədə-baba yurduma dönəcəyimə də əminəm. İnanıram ki, dövlətimizin başçısı İlham Əliyev Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdışına nail olacaq. Allah ölkəmizin rəhbərinə uzun ömür versin. Əsgərlərimizi, zabitlərimizi qorusun. Şəhidlərimizə də Allahdan rəhmət diləyirəm.

23 saylı seçki məntəqəsinin sədri Aydan Cavadlı seçicilərin prosesə fəal qoşulduqlarını, səsvermədə iştirak etmək üçün ərizə yazan, həmçinin telefonla müraciət edən şəxslərə kömək göstərildiyini vurğuladı. Eyni zamanda, yaşlı sakinlərin evlərinə qutular göndərilməsinin diqqətdə saxlanıldığını qeyd etdi.

*

**Nəsimi rayonundakı 5 saylı məktəbdə fəaliyyət göstərən15 saylı seçki məntəqəsində də səsvermə mütəşəkkil keçirdi. Seçicilərin yüksək əhvalla səs verməsi diqqəti xüsusi ilə cəlb edirdi. Budəfəki seçkilərin Qarabağı və Şərqi Zəngəzuru da əhatə etməsini seçicilər öyüncə qeyd edirdilər.**

Ağdamdan məcburi köçkün olan seçici Elməddin Mirzəyev bildirdi ki, atası Yaşar Mirzəyev Xocalı soyqırımı gecəsi şəhər əhalisini mühasirədən çıxaran zaman döyüşdə ağır yaralanaraq uzun illər əlil arabasında ağrı-acılı ömür sürdü. Bu gün xocalıların öz evlərində səs verməsi atasının narahat ruhunu şad edir. Mərhun Qarabağ qazisinin övladları bu xöşbəxtliyi xalqımıza bəxş etmiş Prezident İlham Əliyevə minnətdardırlar.

Məntəqə komissiyasının sədri Məlahət Hüseynova xarici müşahidəçilərin burada seçkinin təşkilindən və keçirilməsindən razı qaldıqlarını məmnunluqla qeyd etdi. Yerli müşahidəçilərdən YAP-in təmsilçisi Məhluqə Əhmədova, "Ağ partiya"nın nümayəndəsi Elşən Məmmədzadə, Müsavat partiyasını təmsil edən Radim Abdullayev, müstəqil müşahidəçilər Nizami Xəlilov, Gülnarə Səfərəliyeva və digər ictimai nəzarətçilər də prosesin ahəngdar getdiyini, verilən sualların dərhal cavablandırıldığını, qanun pozuntusunun baş vermədiyini söylədilər.

Seçkini müşahidə etməyə gəlmiş Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinski də prosesdən razı qaldığını qeyd edərək bildirdi ki, rayonun digər məntəqələrində də səsvermə fəallıqla keçir, narahatlıq qdoğuran hallara rast gəlinməyib. Bu ölkəmizdə seçki mədəniyyətinin yüksək səviyyədə mənimsənildiyini, xalqımızın ictimai fəallığın ildən-ilə artdığını göstərir.

## Qaradağ

**Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər günündə Bakının Qaradağ rayonunun bütün səsvermə məntəqələrində seçicilərin böyük fəallığı müşahidə olunurdu.**

11 saylı Qaradağ-Binəqədi seçki dairəsinin 33 saylı seçki məntəqəsinin sədri Samirə Musayeva XQ-nin müxbirinə bildirdi ki, məntəqə üzrə 1398 seçici qeyiyyata alınıb. Onları çoxu böyük həvəslə səs verirlər.

Samirə xanım həmçinin vurğuladı ki, səsvermə zamanı qanunazidd hallara rast gəlinməyib, seçki prosedurunnu bütün qaydalarına əməl olunur. Müxtəlif siyası partıyaların və bitərəflərin nümayəndələrinə, eləcə də müşahidəçilərə seçki prosesini izləmək üçün hər cür şərait yaradılıb.

Biz dairənin digər məntəqələrində də yüksək seçki fəallığının şahidi olduq. İnsanlar öz vətəndaşlıq borclarını yerinə yetirməkdən dərin mənunluq hissi keçirirdilər.

Qaradağlılar əmindirlər ki, Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən budəfəki seçkilər ölkəmizdə qanunçuluq və demokratiyanın inkişafına layiqli töhfə verəcək.

## Xəzər

**Milli Məclisə növbədənkənar seçkilərin gedişini rayondakı 12 saylı Xəzər birinci seçki dairəsinin ərazisindəki bir neçə məntəqədə müşahidə etdik. Məntəqələrdə seçicilərin barmaqlarının şəffaf mürəkkəblə rənglənməsi qəbul olunmuş ümumi qaydada həyata keçirilirdi. Seçicilər heç bir maneə olmadan bülleten alıb istədikləri namizədə səs verirdilər. 1, 4, 7, 11 saylı məntəqələrdə səsvermənin sərbəst şəkildə keçirildiyini gördük.**

Dairə seçki komissiyasının sədri Mütəllim Balaqardaşov bildirdi ki, ərazidə 47 min 981 daimi seçici qeydə alınıb:

– Məntəqə seçki komissiyalarından göndərilmiş məlumata görə, saat 12-də seçicilərin 9,5 min nəfəri səsvermədə iştirak edib ki, bu da ümumi sayın 20 faizə qədərini təşkil edir. Səsvermənin gedişini deputatlığa namizədlərin vəkilləri və səlahiyyətli nümayəndələri müşahidə edirlər.

1 saylı seçki məntəqəsində seçici fəallığı daha yüksək idi. İlk olaraq səsvermə prosesinin gedişi ilə tanış olduq. Komissiya sədri Failə Rüstəmova bildirdi ki, saat 10-a qədər artıq 150 seçici vətəndaşlıq borcunu yerinə yetirib. 13 nəfər gənc ilk dəfə səs verir. Ən yaşlı seçici 90 yaşlı Nabat Şirinova isə səhər tezdən öz ağbirçək xeyir-duasını bildirib səs verdi.

## Suraxanı

**Suraxanı rayonunda səhər saatlarından etibarən səsvermə məntəqələrində seçici fəallığı nəzərə çarpırdı. Bu mütəşəkkillik 30 saylı Suraxanı birinci seçki dairəsinin əhatə etdiyi məntəqələrdə də hiss olunurdu.**

Dairə seçki komissiyasının sədri Nadir Tağıyev bildirdi ki, səsvermə prosesini mütəşəkkil qaydada təşkil etmək üçün 2-si qapalı olmaqla 37 seçki məntəqəsi yaradılıb. Bütün məntəqələrdə hazırlıq işləri ən yüksək səviyyədə başa çatdırılıb. Səsvermə prosesini diqqətlə izləmək üçün 8 məntəqədə veb-kamera quraşdırılıb. Dairə üzrə 47 min 623 seçici qeydə alınıb.

Səsvermə prosesinin ilk saatlarından bütün məntəqələrdə, xüsusən də 8, 10, 21 və 32 saylı məntəqələrdə daha çox fəallıq müşahidə olunurdu. Artıq saat 12-dək 12 mindən çox vətəndaşın məntəqələrə gələrək səs verməsi (25 faiz) də bu fəallığın nəticəsi idi.

Yüksək seçici fəallığı 31 saylı Suraxanı ikinci seçki dairəsinə daxil olan məntəqələrdə də müşahidə olunurdu. Dairə seçki komissiyasının sədri İlham Bayramov bildirdi ki, 38 məntəqə üzrə 49 min 860 seçici qeydiyyata alınıb. Dairə üzrə deputat mandatına sahib çıxmaq uğrunda 8 nəfər namizəd seçki marafonuna qoşulub. Onlara səs vermək istəyən vətəndaşların öz iradələrini sərbəst şəkildə ifadə etmələri üçün hər cür şərait yaradılıb.

Ötən hər saat yüksək seçici fəallığı şəraitində keçirdi. Bu da seçkiyə marağın yüksək olmasını göstərirdi. Bununla yanaşı, ATƏT və bir sıra digər beynəlxalq qurumların, eləcə də ayrı-ayrı xarici ölkələrin müşahidə missiyalarının üzvləri də gün ərzində bir neçə məntəqəyə baş çəkərək səsvermə prosesini yaxından izləyiblər.

## Yasamal

**Azərbaycanın Milli Qəhrəmanı şəhid Eldar Məmmədov adına 21 nömrəli tam orta məktəbdə yerləşən 15 saylı Yasamal 1-ci seçki dairəsinin 24, 25 və 26 saylı seçki məntəqələrində oldum. Əvvəlcə 24 saylı seçki məntəqəsinə yaxınlaşdım. Məntəqənin sədri Pərvanə Əliyeva bildirdi ki, 1261 nəfərə bildiriş paylanılıb. Seçki günü saat 10-a kimi 60 nəfər seçici səs verib. Ən yaşlı seçici Həcər Səfərovanın 99 yaşı var.**

Pərvanə xanım sonra dedi ki, bir neçə dəqiqə əvvəl beynəlxalq müşahidəçilər məntəqəyə təşrif buyurmuşdular, seçicilərin azad, sərbəst şəkildə səs vermələri üçün yaradılmış şəraitlə yaxından tanış oldular. Onlar səsvermə prosesindən razı qaldıqlarını bildirdilər. Səsverməyə gələn Gülnar Mehdiyeva adlı seçiciyə yaxınlaşdım. O, "XQ"-dən olduğumu biləndə dedi:

– Mən 70 yaşımı haqlamışam. Builki seçkilər onunla əlamətdardır ki, xalqımız 30 ilə yaxın işğalda olan torpaqlarını azad edib. Vaxtilə dərs dediyim şagirdlərimin bir neçəsi 44 günlük Vətən Müharibəsində qəhrəmancasına vuruşublar, aralarında şəhid olanlar da var. Ruhları şad olsun!

25 saylı məntəqənin sədri Kəmalə İsgəndərova məlumat verdi ki, məntəqə üzrə ən yaşlı seçicimizin 82 yaşı var. Burada vətəndaşların sərbəst, demokratik şəraitdə səs vermələri üçün zəruri olan bütün işlər görülmüşdür. İndi saat 12-dir. 100-ə yaxın seçici səs verib.

## Nərimanov

**19 və 20 saylı Nərimanov seçki dairələrinin məntəqələrində səsvermənin ilk saatlarından canlanma müşahidə olunurdu. Məntəqələrdə insanlar sərbəst şəkildə səsvermə prosesində iştirak edirdilər.**

19 saylı Nərimanov birinci seçki dairəsinin komissiya sədri Azad Nəbiyev səsvermənin gedişi barədə XQ-yə məlumat verdi:

– Dairəyə daxil olan 37 məntəqədə hər bir seçici sərbəst şəkildə səs verir. Məntəqlərimizdə 48 min 631 seçici qeydiyyata alınıb. Şəffaflığın təmin edilməsi məqsədilə 11 məntəqədə veb-kamera quraşdırılıb. 26, 6, 7, 24, 26, 28 və 36 saylı məntəqlərdə seçici fəallığı müşahidə edilir. Səs verən ən yaşlı seçicinin 103 yaşı var. Səsvermədə iştirak edən 2 gəncin isə bu gün 18 yaşı tamam olub. Dairə üzrə 597 nəfər vətəndaş səsvermədə ilk dəfə iştirak edir. 20-dək məntəqədə xarici müşahidəçilər seçki prosesini izləyiblər. Ciddi qayda pozuntuları aşkarlanmayıb. Hər bir vətəndaş məntəqələrdə yaradılan şəraitdən məmnun qalıb. Dairədən 6 nəfər deputatlığa namizədliyini irəli sürüb.

20 saylı Nərimanov ikinci seçki dairəsinin məntəqələrində səs verən seçicilər də istədikləri namizədlərə rahatlıqla səs verirdilər.

Dairə komissiya sədri Musa Musayev məntəqələrdə müşahidə olunan seçki prosesi barədə danışdı:

– Dairə üzrə 36 məntəqədə 49 min 191 seçici qeydə alınıb. Ən yaşlı 3 nəfər xanım vətəndaşımız bu seçkidə səs verib. Onlardan 2-sinin 101, 1-nin isə 100 yaşı var. 2 nəfər seçicimizin bu gün 18 yaşı tamam olub. 568 nəfər seçici isə ilk dəfə səsvermə prosesində iştirak edir. 4, 5, 15, 19, 3, 11 və 35 saylı məntəqlərdə seçici fəallığı müşahidə olunur.

## Nizami

**24 saylı Nizami birinci seçki dairəsinin seçki məntəqələrində də yüksək fəallıq müşahidə edilirdi. Seçicilərin sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılmışdı. Söhbət zamanı 1 saylı seçki məntəqəsinin sədri Rövşən Məmmədov bildirdi:**

– Bizim məntəqədəki siyahıda 1481 nəfər seçici var. Seçkilər məcəlləyə uyğun keçirilir və heç bir qanun pozuntusuna yol verilməyib. Müxtəlif siyasi partiyaların nümayəndələri, deputatlığa namizədlərin vəkilləri, müstəqil müşahidəçilər seçki prosesini diqqətlə izləyirlər.

Seçici Gültəkin Süleymanova isə dedi ki, uzun illər 220 saylı məktəbdə müəllim işləyib:

– Mən pensiyaya çıxsam da ictimai həyatda fəal iştirak edirəm. Yaşadığım ərazidə seçicilərin səsvermədə fəal iştirakı üçün təbliğat aparmışam. Gördüyünüz kimi səsvermə olduqca fəal keçir. Bütün namizədlərə uğurlar arzulayıram.

Seçki dairəsinin 2 saylı məntəqəsinin sədri Laləzar Məmmədova bildirdi ki, ərazidə 1480 seçici var. 2 nəfər ahıl yaşlarındadır. Onların evinə qutu aparılıb.

24 saylı Nizami birinci dairə seçki komissiyasının sədri Niyazi Nəcəfov isə bildirdi ki, ərazi üzrə 8 namizəd qeydiyyatdan keçib. 49 min 24 nəfər seçici qeydə alınıb, onlardan 368 nəfəri ilk dəfə səsverənlərdir. Bütün məntəqələr veb-kameralarla, texniki vasitələrlə təchiz olunub. Bir narazılıq, qanun pozuntusu qeydə alınmayıb.

**Səhifəni hazırladılar:**
**Tahir AYDINOĞLU,**
**Məsaim HACIXANLI,**
**Vaqif BİNYATOĞLU,**
**İmran BƏDİRXANLI,**
**Zərifə HÜSEYNOVA,**
**Mirbağır QULİYEV,**
**Paşa ƏMİRCANOV,**
**Pünhan ƏFƏNDİYEV,**
**Leyla QURBANOVA,**
**Kəmalə ABDİNOVA,**
**Ceyhun ALIŞLI**
**XQ**

# Bütövləşmiş Azərbaycanın seçimi

## *Xalq–dövlət birliyinin növbəti nümayişi*



**(əvvəli 1-ci səhifədə)**

Xalqımız öz yüksək iradəsini növbəti dəfə ortaya qoydu. Müasir müstəqillik illərində ilk dəfə olaraq bütöv Azərbaycanda, dövlət suverenliyini tam bərpa etmiş Vətəndə keçirilmiş ali qanunverici orqana seçkilər layiqli şəkildə başa çatdı.

Qeyd edək ki, parlament seçkiləri 125 seçki dairəsi üzrə 6478 məntəqədə keçirildi. Həmin məntəqələrdən 54-ü işğaldan azad olunmuş ərazilərdə yerləşirdi ki, bu, səsvermə hüququna malik 42 mindən artıq seçicini əhatə edirdi. Bununla yanaşı, bildirək ki, seçkilərdə 990 deputatlığa namizəd mübarizə apardı ki, onlardan 305 nəfərin namizədliyi siyasi partiyalar tərəfindən, 684 nəfərin namizədliyi öz təşəbbüsü ilə, 1 nəfərin namizədliyi isə təşəbbüs qrupları tərəfindən irəli sürülmüşdü. Seçkilərlə əlaqədar 598 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdi. Onlar 51 beynəlxalq qurumu və 69 ölkəni təmsil edirlər. Qeydiyyatdan keçmiş yerli müşahidəçilərin sayı isə 112 min 749 nəfər idi.

Milli Məclisə növbədənkənar seçkilərlə bağlı statistikanın bütün məqamlarını diqqətə çatdırmaq niyyətindən uzağıq. Hesab edirik ki, ölkədəki yüksək seçki ab-havasının özü hər şeyi deyir. Qısa bir müddətdə bu ab-havanın yaranması onu deməyə əsas verir ki, xalqımız taleyüklü məsələlərə münasibətdə həmrəylik immunitetini qoruyub saxlayır. 1 sentyabr seçkiləri bu həmrəyliyin təntənəsi kimi yadda qaldı.

Azərbaycanda xalq-dövlət həmrəyliyi təmin edilib. Dövlətimizin iradəsinin nəticəsi olan bütün tədbirlər insanlarımız tərəfindən yüksək qiymətləndirilir. Xalqımız Milli Məclisin qanunyaratma və qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələrinin genişləndirilməsi, qanunların icrasına nəzarət və təmsilçilik funksiyalarının müasir tələblər səviyyəsində qurulması yolundakı missiyasını da yüksək qiymətləndirir və hesab edir ki, bu missiyanın tam və qüsursuz reallaşması vacibdir. Məsələyə mövcud prizmadan yanaşaraq, 2024-cü ilin noyabrında keçirilməli olan parlament seçkilərinin vaxtının əvvələ çəkilməsində böyük məntiq var.

Məlum olduğu kimi, noyabrda ölkəmiz dünya miqyaslı tədbirlərin keçirildiyi məkana çevriləcək. Nüfuzlu beynəlxalq təşkilatların toplantılarına və digər tədbirlərə uğurla evsahibliyi edən paytaxtımızda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 təşkil olunacaq. Bundan başqa, noyabrda ölkəmizdə Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası da keçiriləcək. Bu tədbirlər dünyanın diqqətini Bakıya yönəldəcək. Paytaxtımız on minlərlə xarici qonağı qəbul edəcək. Qlobal əhəmiyyətli bu toplantıların təşkili Vətənimizin beynəlxalq nüfuzunun daha da artmasına səbəb olacaq. Üstəlik, COP29 sessiyası çərçivəsində Parlament Konfransının təşkili də nəzərdə tutulur. Bu barədə Milli Məclislə Parlamentlərarası İttifaq arasında Anlaşma Memorandumu imzalanıb. Parlament iclası COP29-un ən mühüm tədbirlərindən biridir və bu iclasa hazırlıq üçün Milli Məclisdə deputatlardan ibarət işçi qrupları yaradılmalıdır. Bundan başqa, Parlament Konfransının yekun sənədinin hazırlanması da uzun və çətin prosesdir. Ona görə də Azərbaycan Milli Məclisinin yeni tərkibinin COP29 sessiyasına qədər formalaşması çox mühüm əhəmiyyət kəsb edirdi.

Parlament seçkilərinin demokratik prinsiplərə uyğun şəkildə təşkili, habelə vətəndaşların seçkiqabağı kütləvi tədbirlərdə və seçkilərdə maneəsiz iştirakının, səsvermədə öz iradəsini azad və sərbəst ifadə etməsinin təmin olunması dövlətin əsas vəzifələrindəndir. Buna görə də Milli Məclisdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvlərinin növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciəti, bütövlükdə, xalqın maraq və mənafelərindən irəli gəlirdi.

Qətiyyətlə demək mümkündür ki, YAP-ı təmsil edən deputatların növbədənkənar seçkilərin təyin edilməsi barədə təşəbbüsü mövcud reallıqları nəzərə alan, ölkəmizin qarşısında duran vəzifələrin miqyasını düzgün qiymətləndirən yanaşmanın ifadəsinə çevrildi. Nəzərə alaq ki, yuxarıda sadaladığımız tədbirlərin yüksək şəkildə təşkili zərurəti seçkilərin keçirilməsi ilə bağlı sadaladığımız standartların gözlənilməsində müəyyən maneələr yarada bilərdi. İkinci bir tərəfdən, 2024-cü ilin noyabrında keçirilməli olan parlament seçkiləri ilə bağlı daha bir həssas məqam var.

Əvvəldə də qeyd etdik ki, 1 sentyabr seçkiləri Azərbaycanın dövlət suverenliyini və ərazi bütövlüyünü təmin etdikdən sonra reallaşan ilk parlament seçkisidir. Bu "ilk"in ən yüksək səviyyədə olması zərurəti xalqımız, cəmiyyətimiz və dövlətimiz qarşısında dayanan mühüm vəzifə idi. Yəni, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra ilk dəfə olaraq 7 fevral 2024-cü ildə keçirilmiş Prezident seçkiləri hansı yüksək ab-havada olmuşdusa, parlament seçkilərinin də eyni qaydada olmasına ehtiyac duyulurdu. Hesab edirik ki, bu ehtiyacın ödənilməsi nöqteyi-nəzərindən də seçkilərin vaxtının əvvələ keçirilməsi məntiqi sayılmalıdır və yanaşma özünü doğrultdu.

Dünən Milli Məclisə keçirilmiş növbədənkənar seçkiləri zəruri edən daha bir məqama diqqət yetirək. Məlumdur ki, beynəlxalq aləmdə mürəkkəb proseslər gedir. Dünyanın müxtəlif ölkələrində əsl xaos yaşanır. Bəzi dövlətlər bu xaos və anarxiya mənzərəsini aradan qaldırmaqda acizdirlər. Üstəlik, belə xoşagəlməzliklərin ayrı-ayrı yerlərə sıçrama təmayülü də var. Belə bir durumda milli cəmiyyətlərin monolit strukturunun qorunub saxlanması, onların siyasi kataklizmlərə qarşı özünüqoruma instinktinin diri qalması şərtdir. Hesab edirik ki, bu baxımdan da erkən seçkiyə ehtiyac var idi. Ona da əminik ki, seçkinin nəticələri haqqında söz açdığımız instinkti möhkəmləndirdi.

Qeyd edək ki, Milli Məclisin bundan əvvəlki tərkibi pandemiyaya qarşı mübarizə ilində formalaşdı. Yuxarıda haqqında söz açdığımız mənfi təmayüllər xüsusunda, belə demək mümkünsə, dünyanın başına almış siyasi pandemiyaya qarşı mübarizə ruhunun ortaya qoyulması vacibdir. Nəzərə alaq ki, Azərbaycan 2020-ci ilin müqəddəs Zəfərindən sonra tamamilə yeni mərhələyə qədəm qoyub. Bu mərhələnin bir cəhəti geosiyasi amillərin regionumuza təsiri ilə bağlıdırsa, digər məqam ölkəmizin öz torpaqlarına sahiblənmə əzmini real tədbirlərlə ortaya qoymasıdır.

Hazırda dövlətimiz tərəfindən "Böyük qayıdış" planı icra olunmaqdadır. Bu plan özündə işğaldan azad edilmiş torpaqlarımızda misilsiz bərpa və quruculuq, yenidənqurma işlərini ehtiva edir. Qarşımızda belə məsuliyyətli dönəmin açıldığı bir vaxtda ölkəmiz heç bir halda kənar qüvvələrin mənfi təsirlərinə uğramamalı, tutduğu yolda sabit addımlamaqdan geri qalmamalıdır. Ən əsası isə prosesin hüquqi tərəfi önəmlidir. Deməli, yeni tərkibli Milli Məclis həm də dövlətimizin siyasi uğurlarının layiqli təmsilçilik plasdarmına çevrilməlidir. Heç şübhəsiz, dünənki seçki mütəşəkkilliyi xalqımızın bu missiyaya növbəti dəstəyinin nümunəsi, eyni zamanda, xalq-dövlət birliyinin nümayişi oldu.

***XQ-nin analitik qrupu***

# Erməni baş nazirin anti-sülh ritorikası

## *Yaxud keçinin əcəli çatanda...*

**Ermənistanın baş naziri Nikol Paşinyanın mətbuat konfransı zamanı səsləndirdiyi fikirlərə bir neçə cəhətdən yanaşmaq mümkündür. Ən başlıca məqam odur ki, N.Paşinyan Azərbaycan – Ermənistan sülh gündəliyinə qarşı çıxır və bu zaman müxtəlif manipulyasiyalara əl atır. Yəni, onun bildirdiklərinin mütləq əksəriyyəti reallıqları təhrif etmək, yeni reallıqlar formalaşdırmaq cəhdidir ki, bu, sülh gündəminə zərbədir. Detallara keçək. Əvvəlcə erməni baş nazirin fikirlərində müəyyən qədər müsbət qiymətləndirilə biləcək bir nüansın üzərində dayanaq.**



Beynəlxalq tərəfdaşlara Bakı – İrəvan münasibətlərinin nizamlanması məsələsindəki dəstəyə görə təşəkkür edən Paşinyan ölkəsinin ikitərəfli danışıqlar formatına üstünlük verdiyini və bu formatın daha effektiv olduğunu açıqlayır. Hətta Azərbaycan Prezidenti İlham Əliyevlə dövlət sərhədində görüşmək barədə niyyətindən söz açır. Yada salaq ki, vaxtilə erməni hökumət rəhbəri və onun komandasında yer alanlar, heç bir halda, tet-a-tet danışıqları məqbul saymırdılar. Onlar bildirirdilər ki, guya, Azərbaycan həmin proses çərçivəsində əldə ediləcək razılaşmaları pozmaq potensialındadır və danışıqların məzmununun fiksasiyası üçün mütləq beynəlxalq vasitəçilik olmalıdır. Yəni indi Nikol mövqeyindən daşınıbsa, durumu proqres kimi qiymətləndirmək mümkündür. Amma...

"Amma" Paşinyan sülh gündəmini pozmağa yönəldiyi şübhə doğurmayan fikirləri ilə əslində, həmin beynəlxalq dairələri, faktiki olaraq, aktivliyə, daha doğrusu, məsələyə müdaxiləyə səsləyir. Bu isə onun təqdir etdiyi ikitərəfli danışıqlar formatına zidd təmayüldür. Həm də ona görə ki, indi danışıqların konkret gündəliyi var və Nikolun da dediyi kimi, bu gündəlikdə bir çox məqamlar razılaşdırılıb. Razılaşdırılmayan məsələlər də aydındır və erməni baş nazir dedikləri ilə onların da üzərində dayanır. Necə?

Məlumdur ki, Azərbaycan Ermənistanla sülh gündəliyi baxımından iki mühüm şərt irəli sürür. Bunlardan biri Ermənistan konstitusiyasında dəyişiklikdir, ikinci ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması ilə bağlı Bakının və İrəvanın quruma birgə müraciət ünvanlamasıdır. Paşinyan vurğulayır ki, nizamlama prosesi başa çatmadığından, ATƏT-in Minsk qrupu buraxıla bilməz. Ortada tam məntiqsiz durum var. Bir halda ki, Nikol ikitərəfli danışıqlar formatının effektivliyindən söz açır, sözügedən təsisat onun (Ermənistanın) nəyinə lazımdır?

Axı hazırda ATƏT-in Minsk qrupunun effektivliyin əldə olunmasında heç bir rolu yoxdur. Heç olmayıb da. Ümumən, qrup tam ölü vəziyyətdədir. Digər yandan, Minsk qrupu Qarabağ məsələsinin aktual olduğu dövrün məhsuludur. Paşinyan ölkəsinin, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edibsə, bu halda da hazırda harada olduqları bilinməyən həmsədrlərə ehtiyac varmı? Başqa bir prizmadan yanaşsaq, Paşinyan ötən il özü bildirmişdi ki, ATƏT-in Minsk qrupu hazırda ona üzv ölkələr arasındakı ziddiyyətlərə görə fəaliyyət göstərə bilmir. İndi nə isə dəyişibmi? Xeyr!

Digər məqama keçid alaq. Söhbət, bilavasitə, Ermənistan konstitusiyasının dəyişdirilməsindən, yaxud əsas qanuna dəyişiklikdən gedir. Azərbaycanın bu tələbi nə üçün səsləndirdiyinə aydınlıq gətirəcəyik. Hələlik isə xatırladaq ki, erməni baş nazir vaxtilə məsələni özü ortaya atmışdı. O, fikrini obrazlı ifadələrlə əsaslandırmışdı. Məsələn, demişdi ki, iki nəfər yol ilə gedir. Onlar əyinlərində nənələrinin tikdiyi qırmızı paltarlardadırlar. Yol mütləq gedilməlidir. Amma qarşıda qırmızı rəngə həssas, aqressiv öküzlər var. Ona görə paltar çıxarılmalı, muzeyə qoyulmalı və gedilməsi zəruri olan yola davam edilməlidir.

Ancaq indi Nikol başqa şeydən danışır. O, Ermənistan konstitusiyasının istinad etdiyi İstiqlaliyyət bəyannaməsi ilə Azərbaycanın əsas qanununun söykəndiyi Konstitusiya Aktını eyniləşdirir. Halbuki belə müqayisə uğursuzdur. Elə ölkəmizin Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin əsaslandırması da bunu söyləməyə əsas verir: "Guya, Azərbaycanın Konstitusiya aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə iddialar tamamilə yanlışdır. Bu məsələdə Azərbaycan Konstitusiyası ilə Ermənistan Konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi qəbuledilməzdir. Ermənistanın bu arqumentini heç bir beynəlxalq tərəfdaş qəbul etmir və bunun qeyri-ciddi olduğunu hər kəs bilir. Ermənistan Konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil. İlk Azərbaycan Respublikası dövründə hansı ərazilərin Azərbaycanın tərkibində olduğu, onların nə zaman Ermənistan tərkibinə qatıldığı isə tarixi faktlardır və bu faktları danmaq mümkün deyil. Bu heç bir halda hal-hazırda, Azərbaycan qanunvericiliyində Ermənistana qarşı ərazi iddialarının olması anlamına gəlmir".

Bəli, tarix danılmazdır. Bugünkü Ermənistan qədim və əzəli Azərbaycan torpaqlarında qurulmuş, türk dünyasını parçalamaq naminə meydana atılmış layihədir. Əslində, Ermənistanın layihə mahiyyətini N.Paşinyan özü də vurğulayıb. Məsələn, ölkəsinə "doğum şəhadətnaməsi" almaqdan danışıb. Nikol bu barədə söz açarkən, əslində, Ermənistanın bir dövlət kimi bəlli sərhədlərinin olmadığı reallığı üzərində dayanıb və hazırda təmsil olunduğu komandanın gələcək nəsillər üçün dövlət miras qoymaq niyyətini qabardıb. Belə olan halda da onun Azərbaycana yönəlik ittihamlara baş vurması tam mənasızdır.

Birbaşa Azərbaycanın tələbinə gəldikdə isə bildirək ki, başqa dövlətin, indiki halda Ermənistanın işinə qarışmaq niyyətindən uzağıq. Ölkəmizə sülh təminatı lazımdır. Nəzərə alsaq ki, konstitusiya dəyişikliyi referendum, yəni ümumxalq səsverməsi ilə reallaşmalı prosesdir, deməli, təminat erməni xalqının iradəsinin məhsulu qismində meydana çıxmalıdır. Xalq işğalçılıq niyyətinə düşməyəcəyini, bu mənfur əməldən imtina məramını açıq bəyan etməlidir.

O da məlumdur ki, Ermənistan konstutisiyasına dəyişiklik, yaxud ümumən ölkənin əsas qanununun dəyişdirilməsi hələ tam təminat deyil. Yəni müvafiq sənəd olmadan da ermənilərin işğalçılıq niyyəti güdmələri mümkündür. Tarixi fakt var: vaxtilə Ermənistan SSR-in ana qanununda Azərbaycana qarşı ərazi iddiası əksini tapmasa da, keçmiş SSRİ zamanında respublikamız belə iddialarla üzləşmişdi. Qarabağın Ermənistana verilməsi ideyaları müzakirə olunmuş və bunun qarşısını ulu öndər Heydər Əliyev almışdı.

Bəli, erməni millətçiləri Heydər Əliyev SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırıldıqdan dərhal sonra – ötən əsrin 80-ci illərinin sonlarında Qarabağın müxtəlif yerlərində təxribatlar törədib dinc azərbaycanlıları qarət edəndə, qətlə yetirəndə, eləcə də digər zərərlər vuranda əllərində hansısa sənəd yox, içlərində avantürizm zəhəri var idi. Sözümüz ondadır ki, "erməni zəhərini" konstitusiya dəyişikliyi aradan qaldıra bilməz. Ancaq Ermənistan cəmiyyəti ortaya xoş niyyət qoymalıdır. Qonşularla normal keçinəcəyini hansısa formada təsdiqləməlidir. Bunu etməlidir ki, ona inamımız yaransın. Hazırda Paşinyanın dedikləri isə inam yaratmaq yox, onu sarsıtmaqdır.

N.Paşinyan inam yaratmaq istəmirsə, biz nə üçün Ermənistanın Naxçıvana gedən yolda təhlükəsizlik təminatına bel bağlayaq? Axı ötən əsrin 80-ci illərinin sonlarında bu qədim diyarımıza yön alan qatarların həmin 40 kilometrlik Ermənistan ərazisi sayılan hissədə – Meğri rayonu ərazisində necə daşa basıldığını görmüşük. Görəsən, bu kimi hallar niyə yaşanırdı? Paşinyan sualı özünə veribmi? Cavab çox sadədir: erməni millətçiləri Naxçıvanı blokadada saxlamaq, bölgəni işğal etmək istəyirdilər. Birinci niyyətlərinə çatdılar, ikincini bacarmadılar. Çünki həmin vaxt Naxçıvanda ulu öndər Heydər Əliyev var idi...

Bəli, qeyd etdiklərimizə görə Azərbaycan Naxçıvana yol məsələsində "Azərbaycandan Azərbaycana yol" məntiqini irəli sürür. Yəni orada heç bir gömrük və sərhəd nəzarəti olmamalıdır. Buna qarşı çıxan rəsmi İrəvan və xaricdəki havadarları ortaya ərazi bütövlüyü və suverenlik klişesini atırlar. Ermənistan rəhbərliyi öz avantürasına yeni görkəm qazandırmaq üçün "Dünyanın kəsişməsi" cəfəngiyyatı ilə çıxış edir. Heç şübhəsiz, məqsəd ölkəyə dividend qazandırmaqdır. Görəsən, rəsmi İrəvan nə üçün 44 günlük müharibədən əvvəl belə bir ideya irəli sürmürdü? Sual ritorikdir. Məlumdur ki, həmin vaxt erməni iqtidarının başı "Qarabağ Ermənistandır və nöqtə" bəyanatına qarışmışdı.

Qarabağ əldən çıxdı. Bölgə həqiqi sahiblərinə qayıtdı. Amma qan töküldü. Müharibə məğlubu Ermənistan diz çöküb imdad dilədi. 44 günlük müharibənin nəticələrini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanat imzalandı. Ancaq N.Paşinyanın hazırda dilə gətirdikləri elə təəssürat yaradır ki, sanki, 44 günlük müharibə olmayıbmış, Ermənistan savaş rüsvayçılığı ilə üzləşməyibmiş. "Mən belə bir aspektə diqqəti yönəltmək istərdim ki, əgər biz sülh gündəliyindən danışırıqsa, həmin sənədi (üçtərəfli bəyanatı – red.) imzalamaqla Azərbaycanın qələbə qazandığını, Ermənistanın məğlub olduğunu və ya əksini iddia edən məsələni qaldırmamalıyıq", – deyən Paşinyanın həyasızlığı heyrət doğurur. İndi nə edək, bu adama yeni üçrətəfli bəyanatmı imzalatdıraq?

Bütün dünya, elə ermənilərin özləri də yaxşı anlayırlar ki, üçtərəfli bəyanat Ermənistanın kapitulyasiya aktıdır və rəsmi İrəvan bu bəyanatla üzərinə öhdəlik götürüb. Həmin öhdəliklərin nəticəsi idi ki, Ağdam, Kəlbəcər və Laçın ölkəmizə təhvil verildi. Sonra yaşananlar, o cümlədən Ermənistanın digər öhdəliklərindən yayınması, müxtəlif spekulyasiyaları, nəhayət 2023-cü ilin sentyabrında keçirilmiş lokal xarakterli antiterror tədbirləri də hər kəsin yaxşı xatirindədir. Deməli, Paşinyan keçmişi unutmamalıdır. Unutmamalıdır ki, qəbul etmək istəmədiyi üçtərəfli bəyanatın 9-cu bəndi var və həmin bəndə görə, Ermənistan Naxçıvana yol üçün təminat verməlidir. Bunu etmir və...

...Rəsmi İrəvan indi sürətlə silahlanma kursu həyata keçirir. Sülh gündəminin aktual səciyyə daşıdığı indiki dövrdə bu nə üçündür? Belə nəticəyə gəlirik ki, Ermənistan vaxt qazanmaq istəyir. Ölkənin hərbi baxımdan möhkəmlənmək məqsədi var. Paşinyan durumu müdafiə qabiliyyətinin gücləndirilməsi məntiqi ilə izah edir. Bu, azmış kimi, Azərbaycanı da günahlandıran bəhanələrə əl atır. Ölkəmizin XİN rəsmisi A.Hacızadənin mövcud istiqamətdəki bildirdiklərinə diqqət yetirək: "Baş nazirin Ermənistanın kütləvi silahlanma səylərinə bəraət qazandıran zaman səsləndirdiyi iddialar heç bir halda həqiqəti əks etdirmir. İlk öncə qeyd edək ki, 30 ilə yaxın müddətdə Azərbaycanın ərazilərini məhz elə istinad etdiyi beynəlxalq hüququn norma və prinsiplərinə, BMT nizamnaməsinə, Alma-Ata bəyannaməsinə zidd olaraq işğal altında saxlayan ölkənin Ermənistan olduğunu, hal-hazırda da qonşularına qarşı ərazi iddialarının mövcudluğunu nəzərə alaraq, Ermənistanın silahlanmasının regional sülh və təhlükəsizliyə necə təhdid olduğunu anlamaq çətin deyil".

Sonda bir məqamdan da söz açaq. Azərbaycan XİN-in mətbuat katibi A.Hacızadə Paşinyanın mətbuat konfransında bildirdiklərinə dair açıqlamasında Ermənistanın Azərbaycana qarşı gizli gündəminin mövcudluğunu vurğuladı. A.Hacızadə bu baxımdan rəsmi İrəvanın ATƏT-in Minsk qrupunun fəaliyyətini bərpa cəhdlərindən söz açdı. Ancaq vurğuladıqlarımızdan belə qənaətə gəlmək mümkündür ki, gizli gündəmin təzahürləri müxtəlifdir. Bəli, dayanıqlı sülhdə maraqlı olmayan Ermənistan əsas məsələlərdən yayınma yolu tutur, özü üçün ehtiyat variantlar hazırlayır. Bu isə səmimiyyətdən tam uzaq davranışdır və ziyanlıdır. Nəzərə alaq ki, Ermənistan 2020-ci ildən bu yana yalnız itirməklə məşğuldur. Deyəsən, bu dəfə itki daha böyük olacaq. Bir el məsəli var ki, keçinin əcəli çatanda çobanın çomağına sürtünər... Əslində, Paşinyanın mətbuat konfransında bildirdikləri buna tam uyğundur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Bölgələrdə parlament seçkiləri təntənəsi






## Naxçıvan

**Azərbaycan Respublikasının Milli Məclisinə, həmçinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər uğurla keçirilib. Naxçıvanda parlament seçkiləri üçün 6, Ali Məclisə seçkilər üçün isə 45 dairə üzrə 331 məntəqədə seçicilər səs veriblər.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 4 saylı Naxçıvan şəhər seçki dairəsinin Naxçıvan Dövlət Texniki Kollecində yerləşən 32 saylı seçki məntəqəsində, həmçinin burada təşkil olunmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə 27 saylı seçki dairəsində səs verib.

Müşahidəçilər məntəqədə səsvermə prosesini izləyiblər. Səlahiyyətli nümayəndə komissiyanın işinə uğurlar arzulayıb.

**Ordubad-Culfa:** 6 saylı Ordubad–Culfa seçki dairəsində 65 seçki məntəqəsi fəaliyyət göstərib. Bu dairənin əhatə etdiyi ərazilər üzrə 47046 seçici qeydə alınıb. Dairə üzrə 512 nəfər ilk dəfə seçkidə iştirak edib.

Ordubad rayonu üzrə 42 məntəqədə seçicilər öz namizədlərinə səs veriblər. Burada seçici sayı 30170, ilk dəfə səs verənlərin sayı isə 313 nəfər olub.

**Kəngərli:** 2 saylı Şərur-Kəngərli seçki dairəsində də fəal seçici sıxlığı müşahidə olunub. Məlumat üçün bildirək ki, bu dairə üzrə Kəngərli rayonunda 1-i qapalı olmaqla 15 məntəqə, Şərur rayonu üzrə isə 43 məntəqə yaradılıb.

Məntəqələr üzrə Kəngərli rayonunda 15 min 236, Şərur rayonunda 33 min 868, ümumilikdə isə 49 min 104 seçici qeydə alınıb. 2 saylı Şərur-Kəngərli seçki dairəsi üzrə Kəngərli rayonundan 171 seçici, Şərur rayonundan isə 508 seçici ilk dəfə seçim haqqı əldə edib.

**Şərur:** Şərur rayonunda Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilərə 2 və 18 saylı Şərur-Kəngərli seçki dairələri üzrə, ümumilikdə, 57 daimi fəaliyyət göstərən, 1 seçkiyə 5 gün qalmış yaradılan, ümumilikdə, 58 seçki məntəqəsi yaradılıb. Həmin məntəqələrin 43-ü Şərur rayonundadır. Dairələr üzrə seçkilərə yüksək hazırlıq işləri görülüb.

Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər üzrə məntəqələrdə veb-kameraların quraşdırılması seçkilərin gedişatını internet vasitəsilə izləmək imkanı yaradıb. Məntəqələrdə, ümumilikdə, 33868 nəfər seçici siyahıya alınıb. Onlardan 508 nəfəri ilk dəfə səsvermə hüququndan istifadə edib.

Seçkilərdə görmə qabiliyyətini tam və ya qismən itirmiş vətəndaşlarımızın səsvermə prosesində iştirak etməsi məqsədilə Brayl əlifbası ilə seçki bülletenləri çap edilərək, bütün seçki məntəqələrinə təqdim edilib. Bu məntəqələrdə seçici sayı, ümumilikdə, 1479 nəfərdir.

Qarışıq Rejimili Cəzaçəkmə Müəssisəsində Milli Məclisə seçkilər üçün 3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin 65 saylı məntəqəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üçün isə 14 saylı Qarabağlar seçki dairəsinin 7 saylı məntəqəsi təşkil edilib.

Cəzaçəkən şəxslərə sərbəst şəkildə səsvermələri üçün şərait yaradılıb. Qeyd edək ki, seçkilərdə bu il 1 nəfər məhkumun 18 yaşı yeni tamam olduğundan ilk dəfə səsvermədə iştirak edir.

## Sumqayıt

**Sübh tezdən Milli Məclisə növbədənkənar seçkilərdə səs vermək üçün 42 saylı Sumqayıt 1-ci seçki dairəsinin məhəlləmizdəki məktəb binasında yerləşən seçki məntəqəsinə tərəf yollanırdım ki, ağsaqqal qonşum Əşrəf Veysəlliyə rast gəldim. O da səs verməyə gedirdi. Söhbət edə-edə məktəbə sarı üz tutduq.**

*Tanınmış şair, Prezidentin fərdi təqaüdçüsü 86 yaşlı Əşrəf müəllim dedi:*

– Son bir qərinədə bu, çox böyük həvəslə səs verməyə getdiyim seçkilərdən biridir. Çünki Vətən müharibəsində qalib gəlmişik, Qarabağımızı, o cümlədən adını təxəllüsümdə yaşatdığım Füzuli rayonunun Yuxarı Veysəlli kəndini işğaldan azad etmişik, ötən ilin sentyabrında da ərazi bütövlüyümüzə tam nail olmuşuq. Belə bir cəlalı olan ölkədə heç seçkilərdən kənarda qalmaq olarmı? Görürsən, yerimayə çətinlik çəksəm də, seçkilərdə iştirak etməyi özümə vətəndaşlıq borcu bilirəm.

Məktəbdəki 17 saylı məntəqədə bülleten alıb, istədiyimiz namizədə səs verdik. Şairi evə yola salandan sonra yanaşı məntəqələrdə də səsvermənin gedişatını izlədim. "Qarabağ" ordenli qazi Ehtiram Məmmədov ürək sözlərini demək üçün yaxın gəldi.

– Hazırda ehtiyatda olan zabitəm. Yenə də canımı Vətənə fəda etməyə hazıram. Seçkilərə gəlincə isə bu siyasi kampaniyanın yüksək səviyyədə təşkil olunduğunu görürəm. Bütün prosedurlar qanuna uyğun aparılır. İnanıram ki, seçiləcək deputatlar Vətənə, xalqa layiqincə xidmət edəcəklər.

Məntəqədə səsverməni izləyən namizəd vəkili Rəsul Rəsulov isə burada seçicilər və müşahidəçilər üçün hər cür şəraitin yaradıldığını bildirdi.

Digər müsahibimiz 15-ci məntəqə seçki komissiyasının sədri Camal Abdulov oldu.

– Bizim 1174 seçicimiz var. Ən yaşlıları 1940-cı il təvəllüdlü Seyidzərif Paşayeva və 1942-ci ildə dünyaya gəlmiş Mehparə Əhmədovadır. Onlar səs verəndə ATƏT-in və MDB-nin müşahidə missiyalarını təmsil edənlər də gəlib çıxdılar və ağbirçək seçicilərlə səmimi söhbətləri oldu. Həm xarici, həm də yerli müşahidəçilər gedişatdan razılıq edirlər.

Qəzetimiz üçün məlumatlar toplamaq üçün seçki dairəsinə getdim. Sədr Ruslan Hacıyev və müavini Aydın Məlikov bütün suallarımı ətraflı cavablandırdılar. Öyrəndim ki, dairənin 42 məntəqəsi var, seçicilər siyasi iradələrini sərbəst ifadə edərək, müxtəlif partiyaların irəli sürdüyü və ya müstəqil 11 namizəd arasından istədikləri şəxsə səs verirlər. Deputat mandatı almaq istəyənlərin 8-i bitərəfdir, YAP, VHP və KXCP-nin hərəsinin 1 namizədi var. Buraya gəlib məntəqələrə yollanan ATƏT müşahidəçiləri Yena Kristina Arnault, Stepan Gerhard Zledler, MDB missiyasının təmsilçiləri Leonid Anfimov, Vitali Krasnobayev, Aleh Kuleba və başqalarından heç bir irad eşidilməyib. Seçici fəallığına gəlincə isə, erkən saatlarda bir qədər seyrəklik olsa da, səsvermə dinamikasının get-gedə artdığı bildirildi.

Yolumuzu Sumqayıt Dövlət Dram Teatrının binasında yerləşən 45 saylı 4-cü seçki dairəsindən saldıq. Komissiya sədri Məhəbbət Məmmədova siyahıda olan 5031 seçicidən 165-nin ilk dəfə səsvermə hüququ qazandığını və onların da əksəriyyətinin artıq məntəqələrdə öz iradələrini ifadə etdiklərini bildirdi.

Məntəqənin qarşısında "ekzit-poll" keçirən Sosioloji Tədqiqatlar Mərkəzinin əməkdaşı Səmra Qazıbəyova ilə də görüşdük. Səs verib məntəqəni tərk edən seçicilərin fikirləri ilə maraqlandığını dedi:

– İlk dəfədir ki, "ekzit-poll"da iştirak edirəm. Çox maraqlıdır. Seçicilərdən kimə səs verdiyini bildirən də olur, bu "sirr"i açmayan da. Ümumiyyətlə, seçki elektoratı ilə ünsiyyət qurmağımdan məmnunam.

Üç ərazini – Sumqayıt, Abşeron və Qaradağ rayonunun müəyyən yaşayış məntəqələrini əhatə edən 47 saylı dairə seçki komissiyasında da əsl işgüzar ruh hökm sürürdü. Komissiya üzvlərindən ayrı-ayrı məntəqələrə yollanan kim, telefon zənglərini cavablandıran kim, suallarla müraciət edənləri dinləyib köməklik göstərən kim...

Dairə seçki komissiyasının sədri İlqar Allahverdiyev bildirdi ki, Sumqayıtın bu ərazisində, Ceyranbatanda, Müşfiqdə, Qızıldaşda, Aşağı Güzdəkdə, Pirəkşküldə, Qobustan-kənddə yaradılmış 46 məntəqə üzrə 52 min 367 vətəndaş seçici kimi qeydiyyata alınıb. Səsverməni 7 veb-kamera ilə izləmək mümkündür. İnanırıq ki, çəkilən zəhmət hədər getməyəcək və seçkilər yüksək fəallıqla başa çatacaq.

Oradan çıxanda yaxınlıqdakı məntəqədə səs vermiş ən gənc seçici İbrahim Əhmədovla rastlaşdıq. Sentyabrın 1-də 18 yaşının tamam olduğunu və artıq səsvermə hüququnun təmin edilməsindən məmnunluğunu, böyük ruh yüksəkliyi ilə seçki marafonuna qoşulduğunu dilə gətirdi. "Xalqımız, dövlətimiz üçün xeyirli olsun!" – dedi.

Sonda bildirək ki, Sumqayıtda seçkilər 6 dairədə keçirilib. Seçicilər 210 seçki məntəqəsində səs veriblər. Seçki məntəqəsinə gələ bilməyən vətəndaşların evlərinə səsvermə qutuları aparılıb.





## Mingəçevir

**Mingəçevir Dövlət Dram Teatrı son iki ildə çox böyük uğurlara imza atıb. Hər dəfə Nur şəhərinə gedəndə mütləq bu sənət məbədinə baş çəkirəm. Yaxın-uzaq rayonlardan teatrda qoyulan əsərlərə baxmağa bilirsiniz nə qədər tamaşaçı gəlir? Teatrın direktoru, respublikanın Əməkdar artisti İntiqam Soltan bildirir ki, qastrol səfərlərində olarkən bəzən bir tamaşa oynamalı olduğumuz halda, bir neçəsini göstərməyə məcbur oluruq. Əl çəkmirlər, buraxmırlar.**

Söhbətə teatrdan başlamağımız təsadüfi deyil. Mingəçevir 54 saylı seçki dairəsinin 36 saylı məntəqəsi burada yerləşir. Məntəqənin sədri Mirzə Cavadov təcrübəli adamdır. Uzun illərdir şəhər təhsilinə rəhbərlik edir. Bildirir ki, mingəçevirlilər məntəqəyə böyük həvəslə gəlirlər.

Dairə seçki komissiyasının sədri Oqtay Məmmədov da seçici fəallığından razı qaldığını bildirdi. Söylədi ki, 40 məntəqənin 12-də veb-kamera quraşdırılıb. Hələ indiyədək bir qanun pozuntusu qeydə alınmayıb. Bir sözlə, şəhərimizdə seçki fəallığı la keçib.

## Lənkəran

**"Cənub mirvarisi" adlanan şəhərin sakinləri yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirərək, Milli Məclisə növbədənkənar seçkilərdə fəallıq göstəriblər.**

Şəhər sakinləri səhər saat 08:00-dan etibarən mütəşəkkil şəkildə məntəqələrə gəlib, istədikləri namizədə səs veriblər. Lənkəranda deputat mandatı uğrunda 3 dairə üzrə 20 namizəd mübarizə aparıb. 132 seçki məntəqəsi üzrə ümumi seçicilərin sayı 139 min 166 nəfər təşkil edir. 1399 nəfəri ilk dəfə səs verib.

Ümumilikdə, Lənkəran rayonunda 3 dairə üzrə 22 məntəqədə veb-kamera quraşdırılıb. Seçkiləri 754 nəfər yerli müşahidəçi ilə yanaşı, xarici müşahidəçilər də izləyib.

Qeyd edək ki, ölkənin ən yaşlı seçicisi 134 yaşlı Tamam Əzizova 78 saylı Lənkəran kənd seçki dairəsinin 38 saylı məntəqəsində qeydiyyatdadır. O da böyük həvəslə dövlətimizin möhkəmliyinə, sevimli balalarının, nəvə-nəticələrinin xoş və firavan günlərinə səs verib. Xarxatan kənd sakini – 104 yaşlı seçici Qızvəs Mehtiyeva isə səhhətində problem yarandığı üçün 76 saylı Lənkəran–Masallı seçki dairəsinin 29 saylı məntəqəsinə seçki qutusunun evinə gətirilməsi üçün müraciət edib. Onun istəyinə uyğun olaraq evinə səyyar seçki qutusu gətirilib.

Qızvəs nənə jurnalistlərə bildirib: "Əvvəlki bütün seçkilərdə fəal iştirak etmişəm. Amma indi səhhətimdə yaranan problemə görə məntəqəyə gedə bilmədim. Sağ olsunlar, qutunu evimə gətirdilər ki, bu dəfə də seçkidən kənarda qalmayım. Mən də ən layiqli hesab etdiyim namizədə səs verdim".

77 saylı Lənkəran şəhər dairə seçki komissiyasının sədri İqbal Rəcəbov bildirib ki, 41 məntəqə üzrə 47 min 815 seçici qeydə alınıb. Məntəqələrdə səsvermənin Seçki Məcəlləsinə uyğun, azad və demokratik keçirilməsi üçün lazımi şərait yaradılıb, 10 məntəqədə "exit-poll" təşkil olunub. Gün ərzində heç bir insident baş verməyib. Səsvermə prosesi yerli və beynəlxalq müşahidəçilərin ciddi nəzarəti ilə seçki qanunlarına uyğun, heç bir pozuntuya yol verilmədən davam edib.

## Abşeron

**Dünən 48-ci Abşeron seçki dairəsinin 5, 15 və 18 saylı seçki məntəqələrində növbədənkənar parlament seçkilərində səsvermənin gedişini izlədik. Seçkilər qanunvericiliyə uyğun şəkildə keçirilir və seçici aktivliyi müşahidə edilirdi.**

Müşahidə etdiyimiz 15 saylı seçki məntəqəsinin sədri Fəranə Məhərrəmova seçici fəallığını yüksək qiymətləndirdi: "Məntəqə üzrə 1497 seçicimiz var. Ümid edirik ki, layiqli namizəd qalib olacaq".

Eləcə də 1462 seçicinin qeydə alındığı 5 saylı seçki məntəqəsinin sədri Təranə Rəsulova səhər saatlarından gərgin işlədiklərini diqqətimizə çatdırdı. Bildirdi ki, seçicilər aktivlik nümayiş etdirirlər.

Məntəqəyə gəlmiş seçicilərlə söhbət etdik. Amin Hüseynov qonşuları ilə birlikdə gəlmişdi. O, seçki hüququndan istifadə etməsini vətəndaşlıq borcu hesab etdiyini vurğuladı.

Gənc seçici Günel Ağayeva Xırdalan şəhər sakinidir. O, səs verdiyi müddətdə böyük seçici fəallığı gördüyünü dilə gətirdi: "Aktivlik xoş təsir bağışladı. Dövlətimiz, xalqımız və gələcəyimiz üçün xeyirli olsun".

Seçkini ölkəmizin gələcəyi üçün mühüm siyasi kampaniya hesab edən Zemfira Qasımova qürur hissi ilə söylədi:

– Mən də öz seçimimi etmişəm, ən layiqli namizədə səs vermişəm.

Qeyd edək ki, 48 saylı Abşeron birinci seçki dairəsinə 38 məntəqə daxildir. Eləcə də Abşeronda 49 saylı ikinci seçki dairəsi də fəaliyyət göstərir ki, onun da tabeliyində 36 seçki məntəqəsi var.

## Zaqatala

**Hələ seçkidən bir gün əvvəl bəzi rəqəmləri dəqiqləşdirmək üçün 112 saylı Zaqatala seçki dairəsinin sədri Fikrət Mustafayevlə əlaqə saxlayanda mənə maraqlı bir əhvalat danışdı. Dedi ki, elə indicə Yengiyan kəndindən gəlirəm. Mağazaya girəndə kimi görsəm yaxşıdır? 101 yaşlı Rubeydə Gülməmmədovanı. Kefini soruşdum. "Şəkər tozu almağa gəlmişəm"– dedi. Mat qaldım. Nə gizlədim, iki ədəd əl-üz sabunu və bir kiloqram konfet alıb: – Bu da mənib sənə hədiyyəm, – dedim. – Seçki günü səsvermə qutusunu evinizə göndərəcəyik. Təəccübləndi. "Nə danışırsan, ay oğul, – dedi, – özüm məntəqəyə gedə bilmirəm ki?"**

Seçki günü Fikrət müəllimlə əlaqə saxladım. 101 yaşlı nənəni soruşdum. Bildirdi ki, Rubeydə Gülməmmədova nəvələri ilə birlikdə 35 saylı məntəqəyə gəlib, istədiyi namizədə səs verib.

112 saylı dairədə 43 məntəqə var və onların 5-də veb-kamera quraşdırılıb. 829 nəfər müşahidəçi qeydiyyatdan keçib. 260 seçici ilk dəfə bülleten götürüb səsvermə qutusuna yaxınlaşıb.

## İsmayıllı

Açığı, 2 il bundan əvvəl rayonun İvanovka kəndində yaşayan Anastasiya Jabinaya söz vermişdim ki, onun 100 illiyində gəlib iştirak edəcəyəm. Sonra bu ilin fevral ayında Prezident seçkilərində özü məntəqəyə gəlib Ali Baş Komandanımıza səs verəndə də demişdim ki, mütləq gələcəyəm. Amma, gedə bilmədim. Seçki günü 89 saylı dairənin 26 saylı məntəqəsinin sədri Palina Babayeva ilə əlaqə saxlayanda çox təəssüflə bildirdi ki, Anastasiya xanım bu dəfə səsverməyə gələ bilmədi. Məcbur olub qutunu evlərinə göndərdik.

89 saylı seçki dairəsinin sədri Namiq Kərimovla əlaqə saxladıq. Söylədi ki, 6 məntəqədə veb-kamera quraşdırılıb. 17 nəfər ilk dəfə səs verib. Seçkilərin gedişini 851 müşahidəçi izləyib.

Günün axırında dairə ilə əlaqə saxladıq. Bildirdilər ki, seçicilərin böyük əksəriyyəti səsvermədə iştirak edib.

## Qəbələ

Nəcəf Mustafayevin 96 yaşı var. Qəbələ rayonunda yaşayır. Hələ elə bir seçki olmayıb ki, iştirak eləməsin, məntəqəyə gedib səs verməsin. Dəfələrlə görüşmüşük. Söhbətcil adamdır. Elə maraqlı əhvalatlar danışsın ki... Qulaq asmaqdan doymursan. Səhər zəng vurmuşdu. "116 saylı Qəbələ seçki dairəsinin 4 saylı məntəqəsindəyəm, –dedi, – Elə bildim, birinci gəlmişəm. Gəlib görürəm ki, cavanlar məni gözləyir. Dedilər ki, Nəcəf dayı birinci sən səs ver. Nə gizlədim, oğul, əməlli-başlı kövrəldim. Özündən böyüyə göstərilən xoş münasibəti görəndə ürəyim dağa dönür. Bilirsən məntəqədə indi nə qədər adam var?"

Eyni sözləri dairə seçki komissiyasının sədri Zülfüqar Cəfərov da dedi. Bildirdi ki, aparılan təbliğat-təşviqat işləri öz bəhrəsini verib. Gələnlərin sayı kifayət qədərdir. 54 min 66 seçicimiz var. Onlar 59 məntəqədə səs verəcəklər. 9 məntəqədə veb-kamera quraşdırılıb. Maraqlıdır ki, 530 nəfər ilk səs verənlərdən 10 nəfərinin ad günü məhz sentyabrın 1-nə təsadüf edib. Onlar böyük əhval-ruhiyyə ilə səs veriblər.

**Səhifəni hazırladılar:**
**Əli NƏCƏFXANLI,**
**İlqar HƏSƏNOV,**
**Rizvan FİKRƏTOĞLU,**
**Səbuhi HƏSƏNOV**
**XQ**

# Zəfərin azad Qarabağa gətirdiyi seçki coşqusu

## *Doğma yurdda səs vermək xoşbəxtliyinin anatomiyası*

**Bu gün Azərbaycan vətəndaşı tarixi dəyişikliklərə şahidlik edir. Prezident, Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik və diplomatik məharəti sayəsində Qarabağda erməni faşizminin kökü kəsildi, 30 ilə yaxın köçkünlük həyatı sürmüş soydaşlarımız bu gün doğma yurda dönüşün ikiqat fəxarətini yaşayırlar. İşğaldan azad edilmiş torpaqlarımızda qurulan seçki məntəqələrində müşahidə olunan coşğu dolu kütləvilik bunun təcəssümüdür. Azərbaycan seçicisi ölkəmizə tərəqqi və Zəfər bəxş edən siyasi kursun davamında maraqlıdır. Bu, dövlətçilik tariximizin salnaməsinə qızıl hərflərlə yazılacaq hadisədir. Biz bu gün neçə əsrdən sonra qürurla xatırlanacaq hadisələrin şahidləri və iştirakçılarıyıq.**









### Şuşa

1 sentyabr – Milli Məclisə seçkilərlə əlaqədar Şuşa şəhərində 46 və 47 saylı seçki məntəqələri fəaliyyət göstərib.

"Azad Şuşada ilk dəfə parlament seçkisində iştirak etdiyim üçün çox sevinirəm. Uzun illərin həsrətindən sonra 4 ay bundan əvvəl doğma yurda qayıdaraq gözəl, müqəddəs şəhərimizdə ölkənin taleyüklü məsələlərinin həllində öz sözünü artıq öz evinin daimi sakini kimi söyləyə bilmək böyük Qələbənin gətirdiyi xoşbəxtliyin göstəricisidir!"

Bu fikirləri "XQ"-ya açıqlamasında Şuşa sakini, yazıçı-jurnalist Kərim Kərimli bildirib. O, Milli Məclisə seçkilərin şuşalılar üçün ikiqat tarixi əhəmiyyət daşıdığını dedi: "Azərbaycan müstəqilliyini bərpa edəndən bu yana həm Şuşada ilk dəfədir ki, parlament seçkiləri keçirilir, həm də şuşalıların bir hissəsi ata-baba yurdlarına qayıdıb. Yəni, doğma şəhərlərində səs verirlər. Mən ailə üzvlərimlə birlikdə səsvermədə iştirak etdim".

Onu da qeyd edək ki, Kərim müəllim Qarabağın işğaldan azad olunacağına bir an belə inamını itirməyib. O, qələmə aldığı məqalələrində, şeir və hekayələrində bununla bağlı fikir və düşüncələrini ifadə edib. Müzəffər Ordumuzun torpaqları düşməndən azad etməsi ilə xalqımızın arzusunun çin olduğunu deyir: "Bu, haqqın, ədalətin qələbəsidir! Bu, əzmkar mübarizənin təntənəsidir və beynəlxalq hüququn təmin olunmasıdır. Bu, həm də mənim kimi yüz minlərlə vətəndaşın öz yurdunda səs vermək hüququnun reallaşmasıdır".

Biz azad Şuşada ilk dəfə keçirilən parlament seçkilərində yüksək seçici fəallığını müşahidə etdik. 124 saylı Şuşa–Ağdam–Xocavənd dairə seçki komissiyasının Şuşa şəhərində yerləşən 46 saylı seçki məntəqəsinin sədri Səbinə Gözəlova deyir ki, şuşalılar seçkidə qürur hissi ilə iştirak edirlər: "Məntəqə üzrə 768 seçicimiz qeydiyyatdadır. Onlardan 7 nəfəri ilk dəfə səs verir. Ən yaşlı seçicimiz isə 1932-ci il təvəllüdlü Şuşa sakinidir. Onu da bildirim ki, məntəqəmiz bütün zəruri ləvazimat, texniki avadanlıqla təchiz olunub. Komissiya üzvləri seçicilərin sərbəst şəkildə səs verməsi üçün fəaliyyət göstərirlər. Bu tarixi seçkilərdə məntəqə sədri kimi iştirak etdiyimə görə fəxr edirəm".

### Xankəndi

"Valideynlərim, həyat yoldaşım və iki övladımla Xankəndidə yaşayıram. Bir qarabağlı kimi Allaha şükürlər edirəm ki, parlament seçkilərində doğma şəhərimizdə səs vermək mənə nəsib oldu. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. İkinci dəfədir ki, seçkilər respublikamızın hər yerində keçirilir. Bunlara şahidlik etmək özü böyük xoşbəxtlikdir".

Bunu "XQ"-nin Qarabağ bürosuna Xankəndidə yaşayan Fəyyaz Məhəmmədov dedi. O, Xankəndidə yaşamağın və işləməyin çox qürurverici olduğunu da deməyi unutmadı: "2021-ci ilin may ayından Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin əməkdaşı kimi Şuşa şəhərində işləyirdim. Rəşadətli Ordumuzun Qarabağda separatçılara qarşı keçirdiyi lokal antiterror tədbirlərindən sonra – 2023-cü il oktyabrın 29-dan daimi olaraq Xankəndidə çalışıram. Bu gün sərbəst şəkildə öz namizədimə səs verdim. Allah Vətənimizin azadlığı uğrunda canlarından keçən şəhidlərimizə rəhmət eləsin!"

### Xocalı

Xocalı sakinləri də ilk dəfə öz doğma yurdlarında keçirilən parlament seçkilərində fəal iştirak ediblər. 118 saylı Ağdam–Xocalı seçki dairəsinin Xocalı şəhərində yerləşən 73 saylı məntəqə seçki komissiyasının sədri Ceyhun Əbdülov bizimlə söhbətində bildirdi ki, məntəqədə seçkilərin azad, şəffaf və demokratik şəraitdə keçirilməsi üçün bütün zəruri tədbirlər görülüb: "Bu seçkilər xocalılar üçün xüsusi və əlamətdar siyasi hadisədir. İlk dəfə Xocalı şəhərinin özündə seçki məntəqəsi yaradılıb və şəhər sakinləri 32 ildən sonra öz vətənlərində səsvermə hüquqlarından istifadə edirlər. Xocalılar hamılıqla məntəqəyə gələrək öz namizədlərinə səs verirlər".

"Yetmiş dörd yaşım var. Ömrümün ahıl çağında doğma torpaqlarımızın azadlığını görmək, ərazilərimizdə seçkilərin keçirilməsinin şahidi olmaq bütün arzularımın reallaşması deməkdir. Sevincimin həddi-hüdudu yoxdur. Çünki artıq Şuşaya da, Xocalıya da əzəli sakinləri qayıdıb və burada Milli Məclisə seçkilər keçirilir. Bizə bu xoşbəxtliyi yaşadan hər kəsə minnətdaram".

Bu fikirləri Xocalı rayon Kosalar kənd sakini, 118 saylı Ağdam–Xocalı seçki dairəsinin Gəncə şəhərində yerləşən 60 saylı məntəqə seçki komissiyasının sədri Vaqif Məmmədov bildirib. Onun sözlərinə görə, Azərbaycanın hər yerində keçirilən bu seçkiləri izləyən dostlarımız sevinir, düşmənlərimizin bağrı çatlayır: "Allaha şükürlər olsun ki, möhtərəm Prezidentimizin rəhbərliyi altında Ordumuz torpaqlarımızı işğalçılardan azad edib. Gedib 32 il aralı düşdüyümüz yerimizi-yurdumuzu, kəndimizi gördüm, erməni vəhşiləri tərəfindən çoxu dağıdılmış qəbirlərimizi ziyarət etdim. Gördüm ki, bu gün Qarabağa, Şərqi Zəngəzura həyat qayıdır. Biz qazandığımız tarixi qələbənin qədrini bilməli və hamılıqla Azərbaycanın işıqlı gələcəyi naminə əlimizdən gələni əsirgəməməliyik".

Gəncə şəhərinin yaxınlığında Xocalıdan, o cümlədən Laçın və Kəlbəcərdən olan məcburi köçkünlər üçün salınmış qəsəbənin sakinləri 60 saylı məntəqədə səs verirlər. Məntəqənin sədri Zülfü Quliyevdən aldığımız məlumata görə, qeydiyyatda olan 835 seçicidən 9 nəfəri ilk dəfə səs verən gənclərdir. 10 seçiciyə daşınan qutu göndərilib. Onlardan biri ən yaşlı seçicimiz – 99 yaşlı Cavadova Tutu İslam qızıdır.

### Kəlbəcər

"Milli Məclisə seçkilər işğaldan azad edilmiş digər ərazilərin sakinləri kimi, biz kəlbəcərlilər üçün də müstəsna əhəmiyyət kəsb edir. Çünki 30 ildən sonra bu seçkilər ilk dəfədir doğma Kəlbəcərimizdə keçirilir".

Bu sözləri "XQ"-ya 123 saylı dairə seçki komissiyasının Kəlbəcər şəhərində yerləşən 63 saylı məntəqəsinin sədri Firdovsi Qafarov deyib. O, həmçinin məntəqədə seçkilərə yüksək hazırlıq işlərinin görüldüyünü, seçicilərin səsvermə hüququndan sərbəst şəkildə istifadə etmələri üçün bütün lazımi şəraitin yaradıldığını vurğuladı: "Səsvermə sakit, eyni zamanda, seçici fəallığı ilə davam edir. Azad Kəlbəcərdə yaşayan və işləyən sakinlər axınaxın məntəqəyə gələrək öz namizədlərinə səs verirlər. Bu prosesin iştirakçısı olmağın özü çox sevindiricidir".









### Laçın

"2023-cü il avqustun 25-dən ailəmizlə birgə Zabuxda məskunlaşmışıq. Yeni Zabuxun ilk sakinlərindənik. May ayının 24-də 18 yaşım tamam olub. Bu gün isə ilk dəfə parlament seçkilərində iştirak edərək səs verdim. Özü də azad Laçınımızda, babalarımın yurdunda. Bu, mənim üçün çox qürurvericidir və heç zaman yaddaşımdan silinməyəcək".

Bu sözləri Laçın rayonu Zabux kənd sakini, Sumqayıt Dövlət Universitetinin birinci kurs tələbəsi Hüseyn Əsdli deyib. O həmçinin bildirib ki, seçki məntəqəsində seçicilər üçün bütün zəruri şərait yaradılıb: "Səsvermə hüququmdan ilk dəfə istifadə etdiyimə görə bu proses mənim üçün çox maraqlı idi. Sərbəst və azad şəkildə öz namizədimə səs verdim".

Qeyd edək ki, 121 saylı Laçın seçki dairəsinin Zabux kəndində yerləşən 108 saylı məntəqəsində ilk dəfə səs verənlərin sayı 5 nəfərdir. Məntəqənin sədri Mübariz Rüstəmov deyir ki, zabuxlular Milli Məclisə seçkilərdə fəal iştirak edirlər: "Cavanlı-qocalı bütün Zabux sakinləri böyük ruh yüksəkliyi ilə məntəqəyə gələrək öz namizədlərinə səs verirər. Hər kəs azad edilmiş torpaqlarda ilk dəfə keçirilən parlament seçkilərində iştirak etməyin qürurunu yaşayır".

### Zəngilan

Böyük Qayıdışın ilk ünvanı olan Zəngilan rayonunun Ağalı kənd sakinləri Milli Məclisə seçkilərdə böyük ruh yüksəkliyi ilə iştirak edirlər. 125 saylı Zəngilan–Qubadlı dairə seçki komissiyasının 33 saylı seçki məntəqəsinin sədri Allahverdi Nəcəfov "XQ"-yə bildirib ki, səsvermə başlayan kimi ağalılar məntəqəyə axın edərək sərbəst şəkildə öz namizədlərinə səs veriblər.

Seçici fəallığı Zəngilan rayonunun işğaldan azad edilmiş Alıbəyli kəndindəki "DOST aqropark"ın inzibati binasında yerləşən 61 saylı seçki məntəqəsində də müşahidə olunub. Məntəqənin sədri Gülnaz Mahmudova deyir ki, seçicilərin əksəriyyəti səhər saatlarından başlayaraq məntəqəyə üz tutublar: "Seçkilərin azad, və demokratik şəkildə keçirilməsini təmin etmək üçün məntəqədə zəruri şərait yaradılıb. İnsanlar öz doğma yurdlarında ilk dəfə keçirilən parlament seçkilərində həvəslə iştirak edirlər. Səs vermək üçün növbəyə dayananların çoxluğu insanların bu siyasi aksiyaya böyük əhəmiyyət verdiklərinin göstəricisidir. Hər kəs anlayır ki, bu seçkilər bütün xalqımız, o cümlədən biz zəngilanlılar üçün tarixi seçkilərdir"!

### Füzuli

Füzuli şəhərində yaradılan 75 saylı seçki məntəqəsinin sədri Ləman Məstalıyevanın dediyinə görə, bu məntəqədə səs verən seçicilər əsasən Füzuli şəhəri və rayonun ərazisində quruculuq işləri aparan şirkətlərin əməkdaşlarıdır: "Günorta saatları olmasına baxmayaraq, seçici fəallığı müşahidə edilir. Məntəqə üzrə qeydiyyatdan keçən seçicilərin 100 faizinin səsvermədə iştirakı gözlənilir!

### Cəbrayıl–Qubadlı

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsinin əhatə etdiyi 82 seçki məntəqəsi üzrə 54 min 486 seçici qeydə alınıb ki, onlardan ilk dəfə səs verənlərin sayı 570 nəfərdir. Dairənin 71 saylı məntəqəsinin sədri Şəlalə Qasımlı bildirib ki, məntəqədə 1020 seçici qeydiyyatdadır: "Seçiciçi fəallığı müşahidə edilir. Əsasən də, səsvermənin ilk saatlarında məntəqədə seçici fəallığı nəzərə çarpır".

Beləliklə, tam əminliklə deyə bilərik ki, VII çağırış Milli Məclisə seçkilər işğaldan azad edilmiş torpaqlarımızda daha yaddaqalan oldu. Çünki insanlar bu seçkiyə Zəfərin gətirdiyi qürur hissi ilə getdilər. Doğma yurdlarında ilk dəfə səs verənlərin keçiridikləri səmimi hissləri sözlə ifadə etməkdə, onların özləri kimi, biz də çətinlik çəkdik...

*Səhifəni hazırladılar:*
***İmran BƏDİRXANLI,***
***Mahir RƏSULOĞLU***
***XQ***

# Bölgələrdə parlament seçkiləri təntənəsi

## Gəncə

**Gəncədə 4 dairə seçki komissiyası üzrə yaradılmış məntəqələrdə dünən səhər tezdən başlanan Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər elə ilk saatlardan seçici fəallığı ilə diqqəti cəlb etdi.**

Şəhərdə 38 saylı Gəncə birinci, 39 saylı Gəncə ikinci, 40 saylı Gəncə üçüncü və 41 saylı Gəncə-Samux-Goranboy seçki dairələri üzrə 133 seçki məntəqəsi qapılarını səsvermə hüququ olan 181 min 90 vətəndaşın üzünə taybatay açmışdı. Onlardan biri Eldar Zeynalovun ürək sözləri həmyerlilərinin seçki təəssüratını ümumi şəkildə ifadə etdi: "Növbədənkənar parlament seçkilərində səs vermək ölkənin daha xoş günlərinə siyasi dəstəkdir. Mən bu prosesdə heç bir çətinliklə qarşılaşmadan və sərbəst iiradə ilə iştirak etdim. Çünki seçki qanunvericiliyi mükəmməldir, hazırlıq yüksək səviyyədə aparılıb".

Müsahibimiz haqlı idi, bütün məntəqələrdə seçkilərin demokratik, şəffaf və ədaləti keçirilməsi üçün lazımi şərait yaradılıb. Məntəqələr zəruri texniki, metodiki vasitələrlə, rabitə şəbəkəsi və təhlükəsizlik avadanlığı ilə təmin olunub. Seçicilərin öz mövqelərini sərbəst ifadə etmələri üçün kabinələr quraşdırılıb. Seçki komissiyası və müşahidəçilər üçün rahatlıq da yerli-yerindədir. Bütün bunlar seçicilərin maneəsiz seçimini təmin etdi. Şəhər sakini Xumar Zeynalov dedi: "Mən də səsvermədə iştirak etdim və öz namizədimə səs verdim. Ümid edirəm ki, bu seçkilər ölkəmizin daha da çiçəklənməsinə töhfə verəcək".

Səs verib məntəqələrdən aralanan seçicilər bildirirdilər ki, adamların fəallığı və sərbəst seçim etmələri onlarda xoş əhval-ruhiyyə yaradıb. Seçici Seyran İmanova bildirdi: "İndi elə bir dövr gəlib ki, heç kimə "onu seç, bunu seçmə" demək mümkün deyil. Mən də istədiyim namizədə səs verdim. Demokratik seçki də elə budur".





## Goranboy

**Goranboyda sentyabrın 1-də 9 nəfər daşınan seçki qutusu vasitəsilə səsvermədə iştirak edib. Onlardan biri də ən yaşlı seçici, rayonun Düzqışlaq kənd sakini, 1920-ci il təvəllüdlü Alya Musayeva oldu.**

Əvvəlcə 104 yaşlı seçici təkid edirdi ki, səsverməyə özüm gedəcəyəm. Lakin son anda həkimlərin məsləhəti ilə nənə üçün daşınan qutu yaşadığı evə gətirildi və o, istədiyi namizədə səs verdi. Alya nənənin səsvermə hüququndan evdə istifadə etməsi ölkəmizdə hər bir seçiscinin səsinin demokratik inkişaf üçün necə önəmli olduğunun göstəricisidir: hər səs bir arzu, bir etimad, bir gözləntidir.

## Şirvan

**Şirvan şəhərində də növbədənkənar parlament seçkiləri yüksək fəallıqla keçirildi.**

51 saylı Şirvan birinci seçki dairəsi üzrə 43 məntəqə fəaliyyət göstərir. Səsvermə hüququ olan vətəndaşların sayı 53 min 446 nəfərdir. Parlament seçkilərində 11 namizəd iştirak edirdi.

32 saylı seçki məntəqəsində 91 yaşlı seçici Əsgər Məmmədov dedi:

– 91 yaşım olsa da, özümü çox gümrah hiss edirəm. Ona görə də səsverməyə özüm gəlmişəm. Xüsusilə, builki növbədənkənar parlament seçkilərinin keçirilməsi mənim də ürəyimcədir. 30 il səbirsizliklə gözləmişəm ki, cənnət Qarabağ düşmən tapdağından xilas olsun. Şükür Allaha, qəhrəman oğullarımız 44 günlük Vətən müharibəsində həyatımıza qələbə, şadlıq gətirdi, üzümüz güldü, əyilən qəddimiz düzəldi. Yaşımın bu çağında qələbənin şirinliyini daddım. Layiqli, xalqın güvəndiyi namizədlərin seçilməsinə mən də ixtiyar bir vətəndaş kimi xeyir-dua verməyə gəlmişəm.

İlk dəfə səs verən Məcid Qasımov bildirdi:

–18 yaşım var. İlk dəfədir ki, səs verirəm. Qürur hissi keçirirəm ki, parlament seçkilərində layiqli namizədin seçilməsində mənim də səsim həlledici rol oynayacaq. Mən elə bir namizədə səs verirəm ki, seçicilərin ümid yeri olsun.

Şəhərin bütün məntəqələrində seçici fəallığı müşahidə olunurdu.







## Oğuz–Qəbələ–Şəki

**Elnarə Ağayeva sentyabr ayının 1-də doğulub. Oğuz rayonunun Böyük Söyüdlü kəndində dünyaya göz açıb. Dünən 18 yaşı tamam olub. Sevincinin həddi-hüdudu yox idi. 117 saylı Oğuz–Qəbələ–Şəki seçki dairəsinin 8 saylı məntəqəsində səs verməyə gedib. Fərəhini belə ifadə edib: "Sevinirəm ki, ilk dəfə olaraq bütöv Azərbaycanı əhatə edən seçkidə iştirak edirəm."**

Qəbələnin Uludaş kəndində doğulan Aynurə Nağıyeva da məhz seçkilərin keçirildiyi gün – sentyabr ayının 1-də anadan olub. 46 saylı məntəqədə 8 namizədin mübarizə apardığı seçkilərdə istədiyi namizədə səs verəcək. Özünün dediyi kimi, məntəqədə hər cür şərait yaradılmışdı. Heç bir müdaxilə olmadı. Kifayət qədər müşahidəçi var idi. Seçki sırf demokratik keçdi.

Dairə seçki komissiyasının sədri Rəsul Cəfərov bildirdi ki, 54 min 690 nəfər seçicimiz var. Seçkinin gedişini 772 nəfər müşahidəçi izləyib. 64 məntəqənin hər biri ilə daim əlaqə saxlanıb. Heç bir pozuntu barədə məlumat almamışıq.

## Balakən

**Dəqiq bilmirəm. Bilmirəm ki, bu gün Böyük Vətən müharibəsinin odundan-alovundan keçmiş neçə döyüşçü sağdır. Öyrənmək cəhdim də baş tutmadı. Amma onu dəqiq bilirəm ki, Şimal-Qərb bölgəsində 1941-1945-ci illərdə alman faşizminə qarşı müharibədə ləyaqətlə vuruşmuş yeganə sağ qalan müharibə iştirakçısı, özünün dediyi kimi, neçə-neçə dostunun yarımçıq qalmış ömrünü yaşayan İosit Perekrestknu bu gün yada salmamaq günah olardı. Onunla çox görüşmüşəm, şirin söhbətlərinə qulaq asmışam. Balakənin tarixini yaddaşlara köçürən, "Yeni Balakən" qəzetinin baş redaktoru Ramazan Abalovla onun qapısını döymüşük. Həmişə qayğıları ilə maraqlanmışıq. Gələn il 100 yaşını qeyd edəcək veteranın yenə də evinə səsvermə qutusu aparılıb. Səs verib, gələnlərə ürək sözlərini deyib. "Bu dövranın, zamanın qədrini bilin, – söyləyib.**

110 saylı dairə seçki komissiyasının sədri Vahid Əliyevlə əlaqə saxladıq. Bildirdi ki, 8 məntəqədə veb-kamera quraşdırılıb. 447 nəfər seçici ilk dəfə səs verib. Seçkiləri 769 müşahidəçi izləyib. Hamısı da seçkinin demokratik ab-havada keçməsindən həvəslə danışırlar.



## Kürdəmir

**62 saylı Kürdəmir dairə seçki komissiyasının sədri Əbülfət Mikayılovla əlaqə saxladıq. Dairə sədri seçkinin şəffaf, tam demokratik keçirilməsi üçün hər cür şəraitin yaradıldığını söylədi. 10 məntəqədə veb-kamera quraşdırılıb. 979 nəfər müşahidəçi qeydiyyatdan keçib. 7 namizəd mübarizəyə qoşulub. 534 nəfər ilk dəfə səs verib. Bir sözlə, seçici fəallığından çox razıyıq. Günün sonunda dairəyə zəng vurduq. Əbülfət müəllimin cavabı qısa oldu: "Seçki uğurla başa çatdı. Seçicilərin böyük əksəriyyəti məntəqələrə gəlib, istədiyi namizədə səs verdi".**

## Şimal bölgəsi

**Milli Məclisə növbədənkənar seçkilər şimal bölgəsində altı rayonu əhatə edən 7 seçki dairəsi üzrə təşkil olunub. Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı bölgələrini əhatə edən dairələr üzrə ümumilikdə 429 məntəqədə səsvermə keçirilib. Seçicilər yeddi seçki dairəsi üzrə qeydə alınan 53 namizəd arasında seçim ediblər.**

Qeyd edək ki, şimal zonası üzrə səsvermə hüququ olan 345 min 248 seçici qeydiyyata alınıb. Bölgənin ən yaşlı seçicisi Şabran rayonunun Ağbaş kəndində yaşayan 104 yaşlı Meynas Maqsudovadır.

55 saylı Siyəzən–Quba–Xızı dairə seçki komissiyasının sədri Rəşad Nuriyev mətbuata bildirib ki, seçkilər bütün məntəqələrdə nəzərdə tutulan vaxtda və qaydalara uyğun başlayıb və saat 19:00-da başa çatıb.

"Səsvermənin ilk dəqiqələrindən seçici aktivliyi müşahidə olunub. Bizim dairə üzrə 72 məntəqə fəaliyyət göstərir. Bu məntəqələrdə 49 mindən çox seçici səs vermək hüququna malikdir. 72 məntəqədə 953 müşahidəçi prosesi izləyib. Səsvermə başlayandan bütün məntəqələrlə əlaqə yaradılıb. Proses şəffaflıq şəraitində davam edib", – deyə R.Nuriyev vurğulayıb.

Şimal bölgəsində olan 55 saylı Siyəzən–Quba–Xızı, 56 saylı Şabran–Xaçmaz, 57 saylı Xaçmaz şəhər, 58 saylı Xaçmaz kənd, 59 saylı Quba, 60 saylı Quba–Qusar və 61 saylı Qusar seçki dairələrinin hər biri üzrə kifayət qədər yüksək seçici fəallığı müşahidə olunub.

**Səhifəni hazırladılar:**
**Məsaim ABDULLAYEV,**
**Hamlet QASIMOV, Əli ƏLİYEV,**
**İlqar HƏSƏNOV,**
**Fidan SALMANOVA**
**XQ**

# Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərin ilkin nəticələrini açıqlayıb

**(əvvəli 1-ci səhifədə)**

6 saylı Ordubad-Culfa seçki dairəsi - **Rəhimzadə Vüqar Gəncəli oğlu** – 11 min 43 səs (67,1 faiz).
7 saylı Səbail seçki dairəsi - **Arpadarai Nigar Cavid qızı** – 10 min 880 səs (57,3 faiz).
8 saylı Binəqədi birinci seçki dairəsi - **Quliyev Azay Əjdər oğlu** – 7 min 234 səs (57,4 faiz).
9 saylı Binəqədi ikinci seçki dairəsi - **Qafarov Kəmaləddin Nəsrəddin oğlu** – 16 min 311 səs (73,5 faiz).
10 saylı Binəqədi üçüncü seçki dairəsi - **Musayev Elşad Nəbi oğlu** – 11 min 576 səs (57 faiz).
11 saylı Binəqədi-Qaradağ seçki dairəsi - **Xasayeva Səbinə Səməd qızı** – 15 min 159 səs (68,4 faiz).
12 saylı Xəzər birinci seçki dairəsi - **Məmmədov Soltan Teymur oğlu** – 7 min 684 səs (50,9 faiz).
13 saylı Xəzər ikinci seçki dairəsi - **Paşayeva Gülşən Məmmədəli qızı** – 8 min 632 səs (48,5 faiz).
14 saylı Xəzər-Pirallahı seçki dairəsi - **Əfəndiyeva Günay Elçin qızı** – 8 min 485 səs (49,5 faiz).
15 saylı Yasamal birinci seçki dairəsi - **Quliyev Ülvi Zahid oğlu** – 4 min 714 səs (53,4 faiz).
16 saylı Yasamal ikinci seçki dairəsi - **Qədirli Erkin Toğrul oğlu** – 6 min 498 səs (49,4 faiz).
17 saylı Yasamal üçüncü seçki dairəsi - **Qəhrəmanov Göydəniz İbrahim oğlu** - 12 min 165 səs (71,9 faiz).
18 saylı Nərimanov-Nizami-Binəqədi seçki dairəsi - **Musabəyov Rasim Nəsrəddin oğlu** – 11 min 99 səs (50,2 faiz).
19 saylı Nərimanov birinci seçki dairəsi - **Məmmədov Hikmət Baba oğlu** – 11 min 913 səs (72 faiz).
20 saylı Nərimanov ikinci seçki dairəsi - **Vəliyev Samir Əhməd oğlu** – 10 min 495 səs (62 faiz).
21 saylı Nəsimi-Binəqədi seçki dairəsi - **İbrahimqızı Məlahət İbrahim qızı** – 5 min 674 səs (62,4 faiz).
22 saylı Nəsimi-Yasamal seçki dairəsi - **Mollazadə Asim Nazim oğlu** – 8 min 180 səs (58 faiz).
23 saylı Nəsimi-Səbail seçki dairəsi - **Səmədzadə Ziyad Əliabbas oğlu** – 8 min 78 səs (52 faiz).
24 saylı Nizami birinci seçki dairəsi - **Nurullayeva Könül Oruc qızı** – 7 min 309 səs (47,9 faiz).
25 saylı Nizami ikinci seçki dairəsi - **Əhmədov Əli Cavad oğlu** – 13 min 407 səs (73,2 faiz).
26 saylı Sabunçu birinci seçki dairəsi - **Mustafa Fazil Qəzənfər oğlu** – 8 min 651 səs (49,5 faiz).
27 saylı Sabunçu ikinci seçki dairəsi - **Əli-zadə Arzuxan Baxşəli oğlu** – 7 min 114 səs (43,5 faiz).
28 saylı Sabunçu üçüncü seçki dairəsi - **Quliyev Eldar Allahyar oğlu** – 6 min 686 səs (48 faiz).
29 saylı Sabunçu dördüncü seçki dairəsi - **Allahverənov Azər Kərim oğlu** – 7 min 774 səs (45,2 faiz).
30 saylı Suraxanı birinci seçki dairəsi - **Fətəliyeva Sevinc Həbib qızı** – 9 min 451 səs (61,7 faiz).
31 saylı Suraxanı ikinci seçki dairəsi - **Məmmədov Qaya Məmməd oğlu** – 8 min 269 səs (51,2 faiz).
32 saylı Suraxanı üçüncü seçki dairəsi - **Həsənova Afət Əbil qızı** – 11 min 697 səs (67,9 faiz).
33 saylı Xətai birinci seçki dairəsi - **Oruc Zahid Məhərrəm oğlu** – 4 min 886 səs (58 faiz).
34 saylı Xətai ikinci seçki dairəsi - **Zabelin Mixail Yuryeviç** – 12 min 421 səs (68,2 faiz).
35 saylı Xətai üçüncü seçki dairəsi - **Vəliyeva Pərvanə Bulut qızı** – 15 min 273 səs (72,8 faiz).
36 saylı Xətai-Suraxanı seçki dairəsi - **Həsənquliyev Qüdrət Müzəffər oğlu** – 9 min 55 səs (53,1 faiz).
37 saylı Qaradağ seçki dairəsi - **Hüseynov Aydın Nəsir oğlu** – 10 min 400 səs (77,6 faiz).
38 saylı Gəncə birinci seçki dairəsi - **Həmzəyev Naqif Ələşrəf oğlu** – 12 min 861 səs (67,1 faiz).
39 saylı Gəncə ikinci seçki dairəsi - **Kərimzadə Pərvin Orxan qızı** – 12 min 39 səs (69,3 faiz).
40 saylı Gəncə üçüncü seçki dairəsi - **Quliyev Musa İsa oğlu** – 13 min 125 səs (66,4 faiz).
41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi - **Cəfərov Müşfiq Cəfər oğlu** – 6 min 814 səs (63,2 faiz).
42 saylı Sumqayıt birinci seçki dairəsi - **Hüseynova Hicran Kamran qızı** – 2 min 51 səs (76,6 faiz).
43 saylı Sumqayıt ikinci seçki dairəsi - **Mirkişili Tahir Famil oğlu** – 9 min 855 səs (68,6 faiz).
44 saylı Sumqayıt üçüncü seçki dairəsi - **Vəliyeva Mehriban Hidayət qızı** – 5 min 752 səs (36,5 faiz).
45 saylı Sumqayıt dördüncü seçki dairəsi - **Salmanova Səbinə Qədir qızı** – 10 min 657 səs (59,5 faiz).
46 saylı Sumqayıt beşinci seçki dairəsi - **Akimova Elnarə Seydulla qızı** – 11 min 897 səs (62,8 faiz).
47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsi - **Şükürov Zaur Ramiz oğlu** – 8 min 947 səs (44,5 faiz).
48 saylı Abşeron birinci seçki dairəsi - **Məmmədova Nigar Fikrət qızı** – 10 min 540 səs (61,6 faiz).
49 saylı Abşeron ikinci seçki dairəsi - **Nəbiyev Rizvan Novruz oğlu** – 7 min 719 səs (46,7 faiz).
50 saylı Abşeron üçüncü seçki dairəsi - **Namazov Ramid Zakir oğlu** – 10 min 927 səs (59 faiz).
51 saylı Şirvan seçki dairəsi - **Əsədov Heydər Xanış oğlu** – 12 min 629 səs (67,3 faiz).
52 saylı Yevlax seçki dairəsi - **Məmmədov İlham Kazım oğlu** – 9 min 831 səs (69,3 faiz).
53 saylı Yevlax-Mingəçevir seçki dairəsi - **Hüseynli Əli Məhəmməd oğlu** – 18 min 865 səs (70,7 faiz).
54 saylı Mingəçevir seçki dairəsi - **Mirzəzadə Aydın Böyükkişi oğlu** – 5 min 838 səs (55,8 faiz).
55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsi - **Məmmədli Müşfiq Fazil oğlu** – 10 min 549 səs (59,8 faiz).
56 saylı Şabran-Xaçmaz seçki dairəsi - **Süleymanlı Mahir Tahir oğlu** – 10 min 131 səs (59,6 faiz).
57 saylı Xaçmaz şəhər seçki dairəsi - **Vəliyev Ağalar İsrafil oğlu** – 11 min 902 səs (64,2 faiz).
58 saylı Xaçmaz kənd seçki dairəsi **Mikayılova Sevil Əlirazı qızı** – 8 min 433 səs (49 faiz).
59 saylı Quba seçki dairəsi - **Məhərrəmzadə Əlibala Səttar oğlu** – 12 min 23 səs (57,4 faiz).
60 saylı Quba-Qusar seçki dairəsi - **Rafailov Anatoliy Xaimoviç** – 11 min 177 səs (52,3 faiz).
61 saylı Qusar seçki dairəsi - **Badamov Azər Camal oğlu** – 7 min 346 səs (56,6 faiz).
62 saylı Kürdəmir seçki dairəsi - **Ağazadə Əminə Həmid qızı** – 11 min 302 səs (54,7 faiz).
63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi - **Hüseynov Rafael Baba oğlu** – 10 min 985 səs (52,8 faiz).
64 saylı Salyan seçki dairəsi - **Qurbanov Sadiq Haqverdi oğlu** – 13 min 681 səs (65,4 faiz).
65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi - **Ağamalı Günay Fəzail qızı** – 10 min 282 səs (50,4 faiz).
66 saylı Saatlı seçki dairəsi - **Ələkbərov Əziz Yusif oğlu** – 12 min 309 səs (64 faiz).
67 saylı Sabirabad seçki dairəsi - **Əmiraslanov Əhliman Tapdıq oğlu** – 14 min 426 səs (68,5 faiz).
68 saylı Sabirabad-Şirvan seçki dairəsi - **Cəfərov Kamal Xaqani oğlu** – 12 min 840 səs (59,4 faiz).
69 saylı Biləsuvar seçki dairəsi - **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** – 9 min 848 səs (53,3 faiz).
70 saylı Neftçala seçki dairəsi - **Rüstəmxanlı Tənzilə Yolçu qızı** – 1114 səs (55,1 faiz).
71 saylı Cəlilabad şəhər seçki dairəsi - **Həsənov Malik Əvəz oğlu** – 12 min 160 səs (69,4 faiz).
72 saylı Cəlilabad kənd seçki dairəsi - **Nəsirov Elman Xudam oğlu** - 10 min 74 səs (58 faiz).
73 saylı Masallı-Cəlilabad seçki dairəsi - **İbrahimli Fəzail Feyruz oğlu** – 10 min 57 səs (50,6 faiz).
74 saylı Masallı seçki dairəsi - **Məmmədov Məşhur Şahbaz oğlu** – 12 min 512 səs (64,9 faiz).
75 saylı Yardımlı-Masallı seçki dairəsi - **Qasımlı Musa Cəfər oğlu** – 7 min 866 səs (52,3 faiz).
76 saylı Lənkəran-Masallı seçki dairəsi - **Paşazadə Cavanşir Hümmət oğlu** – 11 min 73 səs (60,3 faiz).
77 saylı Lənkəran şəhər seçki dairəsi - **İsmayılzadə Fariz Akif oğlu** – 9 min 569 səs (60,1 faiz).
78 saylı Lənkəran kənd seçki dairəsi - **İsgəndərov Anar Camal oğlu** – 9 min 31 səs (59,7 faiz).
79 saylı Astara seçki dairəsi - **Mahmudov Rəşad Məmmədqulu oğlu** – 11 min 623 səs (69,7 faiz).
80 saylı Lerik-Astara seçki dairəsi - **Qafarov Vasif Vaqif oğlu** – 6 min 982 səs (56,3 faiz).
81 saylı İmişli seçki dairəsi - **Nurullayev Razi Qulaməli oğlu** – 8 min 300 səs (48,4 faiz).
82 saylı İmişli-Saatlı seçki dairəsi - **Salahlı Səyyad Adil oğlu** – 7 min 994 səs (54 faiz).
83 saylı Beyləqan seçki dairəsi - **İsmayılov Şahin Əmir oğlu** – 14 min 780 səs (68,2 faiz).
84 saylı Füzuli seçki dairəsi - **Bayramov Vüqar İbad oğlu** – 8 min 896 səs (56,3 faiz).
85 saylı Füzuli-Ağcabədi seçki dairəsi - **Abbasov Aqil Məhəmməd oğlu** – 6 min 55 səs (53,4 faiz).
86 saylı Ağcabədi seçki dairəsi - **Rzayev Tahir Musa oğlu** – 15 min 765 səs (67,6 faiz).
87 saylı Qobustan-Şamaxı-İsmayıllı seçki dairəsi - **Seyidzadə Şahin Kamil oğlu** – 12 min 396 səs (60,3 faiz).
88 saylı Şamaxı seçki dairəsi - **Cəfərova Tamam Şaməmməd qızı** – 9 min 498 səs (48 faiz).
89 saylı İsmayıllı seçki dairəsi - **Aslanov Novruzəli Davud oğlu** – 10 min 682 səs (55,4 faiz).
90 saylı Ağsu seçki dairəsi - **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** – 10 min 531 səs (51,5 faiz).
91 saylı Göyçay seçki dairəsi - **Hacıyev Sabir Kamal oğlu** – 11 min 25 səs (51,8 faiz).
92 saylı Göyçay-Ağdaş seçki dairəsi - **Əfəndiyev Məzahir Cavid oğlu** – 9 min 97 səs (45,9 faiz).
93 saylı Ağdaş seçki dairəsi - **Alıyev Sahib Eyvaz oğlu** – 10 min 592 səs (48,9 faiz).
94 saylı Ucar seçki dairəsi - **Həsən Ramil Sahib oğlu** – 12 min 500 səs (61 faiz).
95 saylı Zərdab-Kürdəmir-Ucar seçki dairəsi - **Əliyeva Jalə Fazil qızı** – 10 min 384 səs (48 faiz).
96 saylı Goranboy-Naftalan seçki dairəsi - **Bədəlov Bədəl Şamil oğlu** – 16 min 216 səs (64,9 faiz).
97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi - **Məmmədov Anar İlyas oğlu** – 14 min 479 səs (70,8 faiz).
98 saylı Bərdə-Tərtər seçki dairəsi - **Fətiyev Xanlar Nuru oğlu –** 13 min 213 səs (67,3 faiz).
99 saylı Bərdə seçki dairəsi - **Yıldırım Fatma Vidadi qızı** – 13 min 81 səs (69 faiz).
100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsi - **Bayramov Kamran Fərhad oğlu** – 11 min 739 səs (64,3 faiz).
101 saylı Samux-Şəmkir seçki dairəsi - **Qurbanlı Mübariz Qəhrəman oğlu –** 13 min 565 səs (60 faiz).
102 saylı Şəmkir şəhər seçki dairəsi - **Qafarova Sahibə Əli qızı** – 16 min 468 səs (69,4 faiz).
103 saylı Şəmkir kənd seçki dairəsi - **Həsənov Nurlan Urfan oğlu** – 15 min 213 səs (61,5 faiz).
104 saylı Gədəbəy seçki dairəsi - **Hüseynova Sevinc Əmirəhməd qızı** – 10 min 206 səs (55,7 faiz).
105 saylı Tovuz-Gədəbəy seçki dairəsi - **Nağıyev Arzu Nəsib oğlu** – 11 min 425 səs (52,9 faiz).
106 saylı Tovuz seçki dairəsi - **Səfərov Nizami Abdulla oğlu** – 11 min 783 səs (66,5 faiz).
107 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi - **Ağayeva Ülviyyə Cavanşir qızı** – 11 min 975 səs (54,7 faiz).
108 saylı Ağstafa seçki dairəsi - **Əmiraslanov Azər Kamal oğlu** – 10 min 825 səs (55,1 faiz).
109 saylı Qazax seçki dairəsi - **Seyidov Səməd İsmayıl oğlu** – 14 min 608 səs (65,7 faiz).
110 saylı Balakən seçki dairəsi - **Məhəməliyev Nəsib Məhəmməd oğlu** – 11 min 245 səs (59,4 faiz).
111 saylı Zaqatala-Balakən seçki dairəsi - **Kərimli Azər Şəmşid oğlu** – 10 min 860 səs (59,3 faiz).
112 saylı Zaqatala seçki dairəsi - **Əsgərov Asif Yunis oğlu** – 12 min 942 səs (80 faiz).
113 saylı Qax-Şəki seçki dairəsi - **Məsimli Əli Əhməd oğlu** – 10 min 59 səs (53,6 faiz).
114 saylı Şəki şəhər seçki dairəsi - **İskəndərov Vüqar Yapon oğlu** – 11 min 57 səs (57,6 faiz).
115 saylı Şəki kənd seçki dairəsi - **Feyziyev Cavanşir Əyyub oğlu** – 11 min 123 səs (56,5 faiz).
116 saylı Qəbələ seçki dairəsi - **Musayev Elşən Məmmədhənifə oğlu** – 10 min 432 səs (52,5 faiz).
117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsi - **Qurbanov Eyvaz Daşdəmir oğlu** – 11 min 951 səs (59,9 faiz).
118 saylı Ağdam-Xocalı seçki dairəsi - **Məmmədov Elman Camal oğlu** – 5 min 234 səs (69,2 faiz).
119 saylı Ağdam seçki dairəsi - **Əliyev Bəxtiyar Həmzə oğlu** – 13 min 199 səs (53,2 faiz).
120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi - **Məmmədov Ceyhun Valeh oğlu** – 8 min 162 səs (63,4 faiz).
121 saylı Laçın seçki dairəsi - **Muradov Rövşən Şahbaz oğlu** – 7 min 879 səs (64,3 faiz).
122 saylı Xankəndi seçki dairəsi - **Gəncəliyev Tural Babaşah oğlu** – 1560 səs (55,5 faiz).
123 saylı Kəlbəcər seçki dairəsi - **Qasımlı Mircəlil Xəqani oğlu** – 8 min 465 səs (53,6 faiz).
124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi - **Bülbüloğlu Polad** – 5 min 622 səs (55,9 faiz).
125 saylı Zəngilan-Qubadlı seçki dairəsi - **İsmayılov İmamverdi İbiş oğlu** – 7 min 181 səs (54,6 faiz).

"Bir daha təkrar edirəm ki, bu, Mərkəzi Seçki Komissiyasına daxil olan 6478 məntəqənin 91 faizinin, yəni 5895 məntəqənin rəqəmləridir və ilkin nəticələrdir. Ölkə üzrə seçici fəallığı 37,27 faiz olub. Sabahdan etibarən dairə seçki komissiyalarının protokolları MSK-ya daxil olmağa başlayacaq. İki gün müddətində bütün 125 seçki dairəsindən DSK-nın protokolları MSK-ya daxil olduqdan sonra MSK-nın üzvləri, işçi və ekspert qrupları bu sənədləri araşdıracaq. MSK-ya əgər hansısa müraciət, şikayət daxil olubsa, onların hamısı araşdırılacaq. MSK bu proseslərə ən geci 20 gün müddətində yekun vuracaq. Araşdırmalar başa çatdıqdan sonra MSK qərar qəbul edəcək və daxil olmuş bütün sənədlər MSK-nın və DSK-ların protokolları ilə birlikdə Konstitusiya Məhkəməsinə təqdim olunacaq", - deyə M.Pənahov əlavə edib.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

**AZƏRTAC**

# Azərbaycandakı parlament seçkiləri xarici mediada

**Sentyabrın 1-də Azərbaycanın bütün suveren ərazisində keçirilən növbədənkənar parlament seçkiləri beynəlxalq mətbuatın diqqət mərkəzində saxlanılıb.**

Türkiyənin Anadolu Agentliyi, TRT media qurumu, "Milliyet", "Cumhuriyyet", "Son dakika", "Haberler.com", "Ensonhaber", "Son dakika", "Haber Global" kimi bir çox media qurumu ölkəmizdəki parlament seçkiləri ilə bağlı yazılı və video xəbərlər hazırlayıb.

"Azərbaycan Prezidenti və xanımı Milli Məclis seçkilərində səs verdilər", "Azərbaycan Prezidenti Əliyev Milli Məclis seçkilərində səs verdi", "Azərbaycan seçki prosesində: Qarabağda seçki keçirilir", "YSK sədri Ahmet Yener: Azərbaycanda seçkilər nizamlı və şəffaf şəraitdə keçirilib", "Azərbaycan xalqı seçim edir: 30 il sonra bir ilk", "30 il aradan sonra Azərbaycan bütün torpaqlarında seçki keçirir", "Qardaş ölkə Azərbaycan seçki prosesində" kimi bir çox sərlövhələrlə yayımlanan xəbərlərdə builki seçkilərin ölkəmizin bütün ərazilərində keçirilməsinə vurğu edilib.




Məqalələrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın Bakıda səs verdikləri bildirilir.

Xəbərlərdə vurğulanıb ki, Azərbaycanın erməni işğalından azad etdiyi bölgələrində də seçki qutuları yaradılıb ki, bununla da 30 ildən sonra ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində parlament seçkiləri keçirilib.

Qeyd edilib ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, ATƏT Parlament Assambleyası, Müstəqil Dövlətlər Birliyi, Türk Dövlətləri Təşkilatı, Türkdilli Dövlətlərin Parlament Assambleyası kimi beynəlxalq qurumlardan çox sayda müşahidəçinin iştirak etdiyi seçkilər üçün ölkədə 125 seçki dairəsi üzrə 990 namizəd mübarizə aparıb. Azərbaycan parlament üzvlərini müəyyən etmək üçün yeddinci dəfə seçki keçirir.

Xəbərlərdə, həmçinin Türkiyə Ali Seçki Qurumunun (YSK) sədri Ahmet Yenerin qardaş ölkə mediasına verdiyi müsahibəsi yer alıb. Bildirilib ki, YSK sədri müsahibəsində sentyabrın 1-nin Azərbaycan demokratiyası və tarixi üçün mühüm bir gün olduğunu vurğulayaraq deyib: "Qırx dörd gün davam edən İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən sonra ölkədə ilk dəfə parlament seçkiləri bütün torpaqlarda keçirilir. Seçkilərin Azərbaycan xalqı və Türk dünyası üçün xeyirli olmasını arzulayıram. Seçkilərin nizamlı və şəffaf şəraitdə keçdiyini, azərbaycanlı qardaşlarımızın seçkiyə böyük əhəmiyyət verdiyini görürük. Bunu görmək bizim üçün sevindiricidir. Seçici fəallığı çox yüksəkdir".

Azərbaycan Milli Məclisinə keçirilən seçkilər, o cümlədən Rusiya mediasının da diqqət mərkəzində olub. Belə ki, Rusiya mətbuatında budəfəki parlament seçkilərinin Azərbaycan tarixində xüsusi yer tutduğu, ölkənin müstəqillik tarixində ilk dəfə bütün suveren ərazisində keçirildiyi və xalqın birliyini ifadə etdiyi açıqlanır.

Rusiyalı müşahidəçilərdən biri, Rusiya Federasiya Şurasının Elm, Təhsil və Mədəniyyət Komitəsi sədrinin birinci müavini İlyas Umaxanov "Vestnik Kavkaza" agentliyinə müsahibəsində bu seçkilərin Azərbaycan üçün əhəmiyyətindən danışaraq səsvermənin ölkəmizin bütün suveren ərazisində keçirildiyini qeyd edib. O, azərbaycanlıların öz doğma torpaqlarına qayıtdıqlarını vurğulayaraq deyib: "Bu baxımdan biz bu gün Ümummilli Lider Heydər Əliyevin oğlu, Prezident İlham Əliyevə vəsiyyətinin yerinə yetirildiyinin şahidiyik". O, Rusiyanın Azərbaycanın siyasətini tam dəstəklədiyini, Rusiya Prezidenti Vladimir Putinin Bakıya səfərinin iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə töhfə verdiyini vurğulayıb.

Agentliyin digər həmsöhbəti, MDB PA-nın Baş katibi Dmitri Kobitski parlament seçkilərinin monitorinqinin ilkin nəticələri ilə bağlı fikirlərini bölüşərək qeyd edib ki, müşahidəçilərdən heç biri səsvermənin təşkilinə dair hər hansı nöqsan qeydə almayıb. Onun sözlərinə görə, seçki məntəqələri və məntəqə seçki komissiyaları yaxşı hazırlanıb, yerli müşahidəçilərdən də heç bir şikayət daxil olmayıb.

"News.ru" nəşri Rusiya-Belarus Parlament İttifaqının nümayəndə heyətinin üzvü Nataliya Kosixinanın rəyini oxuculara təqdim edib. O bildirib ki, seçkilər demokratik normalara və prosedurlara uyğun keçirilib. Səsvermənin gedişinə təsir göstərə biləcək qanun pozuntusu qeydə alınmayıb. "Seçkilər ədalətli, açıq və əlçatan keçib", - deyə Nataliya Kosixina bildirib.

Şuşadakı seçki məntəqəsində müşahidəçi qismində iştirak edən Britaniya Lordlar Palatasının üzvü Qurban Hosseyn də nəşrə müsahibəsində parlament seçkilərinin nöqsansız keçdiyini deyib.

"Mir" Dövlətlərarası Teleşirkətinin reportajında qeyd olunub ki, səsvermə prosesini 600-ə yaxın beynəlxalq müşahidəçi izləyib. MDB Parlamentlərarası Assambleyası beynəlxalq müşahidəçilər qrupunun koordinatoru Andrey Yatskin seçki məntəqələrində əyani materialların olduğunu, məntəqə seçki komissiyasına öz müşahidəçilərini ayırmış siyasi təşkilatların da səsvermənin gedişini izlədiyini müsbət hal kimi qiymətləndirib.




"Belarus seqodnya" nəşri MDB müşahidəçilər missiyasının rəhbəri Leonid Anfimovun rəyini öyrənib. L.Anfimov seçicilərin səsverməyə məsuliyyətlə yanaşdıqlarını, səs verəcəkləri namizədi yaxşı tanıdıqlarını diqqətə çatdıraraq bunun seçki prosesinin düzgün aparılmasının nəticəsi olduğunu deyib.

TASS agentliyi də parlament seçkilərinin gedişini ətraflı işıqlandırıb. MDB müşahidəçilər missiyasının üzvlərinin rəylərinin yer aldığı materialda bildirilir ki, səsvermə məntəqələri texniki cəhətdən mükəmməl təchiz olunub, Azərbaycan Mərkəzi Seçki Komissiyası, digər dövlət qurumları müşahidəçilər missiyası ilə əməkdaşlıq ediblər.

"Rossiyskaya qazeta" nəşri xatırladır ki, bu, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdikdən sonra keçirilən ikinci seçkilərdir. Azərbaycanda Prezident seçkilərinin fevral ayında reallaşdığı qeyd olunan materialda deputat mandatı uğurunda 990 namizədin mübarizə apardığı diqqətə çatdırılır.

"İnterfaks" agentliyi "exit-poll"un nəticələrini yayımlayıb. Agentlik ilkin hesablamalara əsasən 7-ci çağırış Milli Məclisə seçkilərdə hakim Yeni Azərbaycan Partiyasının namizədlərinin çoxluq təşkil etdiyini bildirib.

**XQ**




# Asiya İnkişaf Bankı ölkəmizin təmiz enerji layihələrini dəstəkləyir

*"Yaşıl" güc mənbələrinin şaxələndirilməsinə daha çox maraq göstərilir*

**Energetika nazirinin müavini Orxan Zeynalov ölkəmizdə səfərdə olan Asiya İnkişaf Bankının (AİB) enerji sektorunun baş direktoru Priyanta Vijayatunqa və Şərqi, Mərkəzi və Qərbi Asiya komandasının enerji direktoru Junho Hvanqın təmsil olunduğu nümayəndə heyəti ilə görüşüb.**



Söhbət zamanı ölkəmizin AİB ilə sıx əməkdaşlıq əlaqələrini uğurla davam etdirməsi, energetika sektorunun inkişafı, xüsusilə Azərbaycan təbii qazının Avropaya nəqli layihələrinə bu maliyyə qurumunun göstərdiyi dəstək yüksək qiymətləndirilib. Eyni zamanda, enerji sektoru üzrə potensial layihələr və enerji sahəsində yeni əməkdaşlıq imkanları müzakirə edilib. Həmçinin respublikamızın bərpaolunan enerji mənbələrinin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər, ölkəmizin "yaşıl" enerji potensialı, istehsalı və ixracı məsələlərindən bəhs edilib, COP29-la bağlı enerji təşəbbüsləri və planlaşdırılan tədbirlər haqqında ətraflı məlumat verilib.

Görüşdə Energetika Nazirliyi və AİB tərəfindən gerçəkləşdirilən "Üzən günəş panelləri sisteminin inkişafına dair bilik mübadiləsi və texniki yardım" layihəsi



çərçivəsində ötən ay istismara verilən Böyükşor gölü üzərində ümumi gücü 100 kVt olan günəş enerjisi qurğusunun respublikamızın "yaşıl" enerji mənbələrinin şaxələndirilməsinin diqqət mərkəzində saxlanılmasından da danışılıb.

Xatırladaq ki, Energetika Nazirliyi və AİB tərəfindən reallaşdırılan "Üzən günəş panelləri sisteminin inkişafına dair bilik mübadiləsi və texniki yardım" layihəsi çərçivəsində Böyükşor gölü üzərində ilk pilot günəş enerjisi qurğusu artıq uğurla fəaliyyət göstərir.

Yeri gəlmişkən, 95 kilovatı suda, 5 kilovatı isə quruda quraşdırılaraq istismara verilən Böyükşor günəş elektrik qurğusu vasitəsilə il ərzində 160 min kilovat-saatdan çox elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Layihə özəl investisiyaların cəlb olunması üçün çağırış rolunu oynayır və genişləndirilməsi ilə bağlı müzakirələrə şərait yaradır.

AİB-nin respublikamızdakı Daimi Nümayəndəliyinin rəhbəri xanım Kendis Makdeyqanın sözlərinə görə, təmsil etdiyi bank regional layihə çərçivəsində Azərbaycanda su üzərində günəş enerjisindən istifadənin inkişafı üçün texniki dəstək verir. COP29 tədbiri ərəfəsində bu innovativ qurğunun işə salınmasının böyük əhəmiyyət daşıdığını vurğulayan K.Makdeyqanın fikrincə, pilot layihə kiçik miqyasda həyata keçirilsə də, Azərbaycanda daha bir "yaşıl enerji" mənbəyinə çevrilir, su və günəş resurslarından birgə istifadəni optimallaşdırır, enerji kompleksini şaxələndirir və emissiyaların qarşısını alır.

Bank Azərbaycanla əməkdaşlığında ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi, inklüziv artımın təşviqi ilə bağlı hər zaman önəmli addımlar atıb. Eyni zamanda, COP29-un ev sahibi seçilməsi münasibətilə Azərbaycanı təbrik edib və ölkəmizin "yaşıl" inkişaf gündəliyinin əhəmiyyətini yüksək dəyərləndirib. Bununla bərabər, AİB COP29-la bağlı, xüsusilə karbon bazarlarının inkişafına texniki dəstək göstərməyə hazır olduğunu diqqətə çatdırıb.

Ölkəmizlə AİB arasında sıx əməkdaşlığın göstəricisi olaraq bəzi faktları diqqətə çatdırmaq istərdik. Belə ki, cari il aprelin 1-dək AİB ilə ölkəmiz arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində 4,2 milyard dollar dəyərində maliyyələşdirmə proqramları reallaşdırılıb. Bundan başqa, Azərbaycan hökumətinin cəlb etdiyi kreditlər üzrə gerçəkləşdirilən layihə və proqramların məbləği isə 3,2 milyard dollar, dövlət müəssisələri tərəfindən dövlət zəmanəti ilə təmin edilən kreditlər əsasında icra olunan layihə və proqramlar üzrə 930 milyon dollar, bilavasitə özəl sektorun maliyyələşdirilməsi üzrə 62 milyon dollar ayrılıb. Bundan başqa, AİB tərəfindən ölkəmizdə həyata keçirilən layihələrin icrasına dəstək məqsədilə qrant və texniki yardımlar göstərilib.

Adıçəkilən bankın respublikamızla əməkdaşlığından bəhs edərkən onu da bildirək ki, son illər ölkəmizin maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, həmçinin beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilib. Dövlət başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə bununla bağlı nəzərdə tutulan tədbirlərin icrası diqqət mərkəzində saxlanılıb. Respublikada investisiya mühitinin daha da yaxşılaşdırılmasına müsbət təsir göstərən məsələlərin həlli, beynəlxalq maliyyə institutları ilə əlaqələrin genişləndirilməsi də gerçəkləşdirilib.

# Ölkəmizin iqlim konfransına hazırlığı ABŞ-də yüksək dəyərləndirilir

**COP29-un Azərbaycanda keçirilməsi ölkəyə dünya siyasətində özünü daha qabarıq ifadə etmək üçün əla imkanlar yaradıb. Bunu mediaya açıqlamasında Vaşinqtondakı Bay Atlantik Universitetinin politologiya və beynəlxalq münasibətlər üzrə professoru Paolo Von Şirah deyib.**

Onun sözlərinə görə, Bakıda keçiriləcək COP29 iqlim konfransı respublikanın potensialını nümayiş etdirmək üçün əla fürsətdir. Noyabrın 12-də gün ərzində dünyanın hər yerindən gələn nümayəndələr



Azərbaycanda olacaq, bir neçə gün ölkədə qalacaq və iqlim məsələlərinə dair bir çox əlavə tədbirlərdə iştirak edəcəklər.

COP29 təşkilatçılar komandası ilə bir neçə görüş keçirən ekspert onların yüksək peşəkarlığı sayəsində tədbirin böyük uğurla keçəcəyinə əminliyini ifadə edib: "Azərbaycanda olarkən mən COP29 komandası ilə bir neçə görüşdə iştirak etdim. Düzünü desəm, belə bir böyük tədbirə hazırlıq prosesi kifayət qədər mürəkkəb idi. Ancaq əminliklə deyə bilərəm ki, indiki komandanın seçimi çox yaxşı idi və onlar mütləq bu işin öhdəsindən gələcəklər".

Professor daha sonra bildirib ki, bir çox ölkələr "yaşıl" enerjiyə doğru irəliləməyə çalışsalar da, bizim münasibətimizdən asılı olmayaraq, dünya uzun illər neft və qazdan asılılığa davam edəcək: "Bu, insan həyatının təbiətindən irəli gəlir, çünki neft və qazı tamamilə əvəz edə biləcək etibarlı alternativlərimiz hələ yoxdur".

Ekspert sonda qeyd edib ki, bərpaolunan enerji mənbələrindən istifadəyə keçid çox müsbət tendensiyadır. Qlobal enerji balansında alternativ enerji mənbələrinin payının sürətlə artmasına baxmayaraq, bu sahə hələ də bazarda öz yerini tutmayıb. Başqa sözlə, bərpaolunan enerji mənbələri iqtisadi səmərəlilik baxımından karbon mənbələri ilə bərabər şərtlərdə rəqabət apara bilməz. Buna görə də günəşli günlərdə istehsal olunan elektrik enerjisini saxlaya və gecələr şəbəkəyə və ya istehlakçılara ötürə bilən ehtiyat sistemlər, yaxud batareyalar lazımdır. Bu məsələ külək enerjisinə də aiddir. Bəzən külək güclü ola bilir, bu da sizə digər regionlarla müqayisədə məhsuldarlıqda üstünlük verə bilər. Ancaq buna baxmayaraq, bütün bunlar hazırlanma mərhələsindədir, lakin texnologiyalar inkişaf edəcək və ya bəlkə də yeniləri meydana çıxacaq.




**Son illər ərzində Azərbaycanda uğurla həyata keçirilən "yaşıl" enerji layihələrinin sənaye müəssisələrində, eləcə də fərdi evlərdə tətbiqinə başlanılıb. Artıq hər bir elektrik enerjisi istehlakçısının bərpaolunan enerji mənbələri hesabına 150 kVt gücünə qədər şəxsi elektrik stansiyası qurmasına imkan yaratmaq qərara alınıb. Bununla bağlı Nazirlər Kabinetində 2023-cü il 28 sentyabr tarixli 346 saylı qərar imzalanıb.**



# Qəbələdə 3 günəş stansiyası qurulub işə salındı

Beləliklə, fəaliyyət növündən asılı olmayaraq hər bir müəssisə və fərdi ev sahibi quraşdırdığı stansiyadan aldığı elektrik enerjisi hesabına həm daxili tələbatını ödəyə, həm də artıq istehsal etdiyi elektrik enerjisini dövlətə satmaqla əlavə gəlir əldə edə bilər. Ölkə ərazisində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, Azərbaycan dövlətinin apardığı "yaşıl" enerji siyasəti və bu il Bakı şəhərində keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər



Konfransının 29-cu Sessiyasının iqlim dəyişikliklərinin tənzimlənməsi istiqamətində atılan bir addımdır. Qəbələ rayonunun Savalan kəndi ərazisində hər birinin gücü 150 kVt olmaqla, 3 ədəd günəş elektrik stansiyasının istifadəyə verilməsi də bunun bariz ifadəsidir.

Stansiyanın tikintisi Azərbaycanın "SEES" MMC şirkəti tərəfindən yerinə yetirilib. Şirkət ölkə ərazisində həm sənaye müəssisələrində, həm də fərdi evlərdə günəş elektrik stansiyalarının quraşdırılması üzrə ixtisaslaşmış və son bir ildə bu cür layihələrin həyata keçirilməsində sifarişçilər üçün etibarlı tərəfdaşa çevrilib.

Təqdimatda çıxış edən "SEES" MMC-nin baş direktoru Vüqar Şahmuradovun sözlərinə görə, quraşdırılan avadanlıqlar dünya üzrə ən aparıcı istehsalçılardan alınır: "Günəş panellərinə zavod tərəfindən 15 il, panellərin istehsal gücünə isə 30 il zəmanət verilir. Azərbaycanda indiyədək olan mövcud tariflər üzrə hesablamalara əsasən, quraşdırılacaq hər bir günəş elektrik stansiyası sərf ediləcək vəsaiti 3-5 il ərzində geri ödəyəcək və növbəti illərdə stansiya müəssisəyə və ya fərdi ev sahiblərinə əlavə qazanc mənbəyi kimi işləyəcək.

Nazirlər Kabinetinin 28 sentyabr 2023-cü il tarixli 346 saylı qərarı Azərbaycan vətəndaşları üçün əlavə gəlir imkanları ilə yanaşı, ekologiyanın yaxşılaşdırılması və paylayıcı şəbəkənin artıq yüklənməsinin qarşısını alır. Belə ki, böyük günəş elektrik stansiyalarından fərqli olaraq qurulan kiçik stansiyalar yerli transformator məntəqələri vasitəsilə paylanılır və paylayıcı şəbəkədən ötürüləcək gücləri qismən əvəzləyir. Ekoloji göstəricilərə gəldikdə isə Qəbələ rayonunun Savalan ərazisində qurulan ümumi gücü 450 kVt olan günəş elektrik stansiyaları 1 ay ərzində 55 min kVt/saat "yaşıl" elektrik enerjisi istehsal edib ki, bu da atmosferə atılan 45 ton karbon emissiyasının azaldılması və ya 3 mindən çox ağacın əkilməsi deməkdir.

Yeri gəlmişkən, Energetika Nazirliyinin tabeliyindəki Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev Qəbələ rayonunda "Savalan" şərab zavodunun ərazisində istifadəyə verilən hər birinin gücü 150 kVt/saat olmaqla, 3 ədəd "Savalan" Günəş Elektrik Stansiyasının təqdimat mərasimində bildirib ki, Azərbaycanda Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birgə bir neçə layihə həyata keçirilir: "Artıq bir neçə günəş enerji layihələri istifadəyə verilib. Yaxın perspektivdə isə yeni külək enerji stansiyası istismara veriləcək. Artıq bu stansiyanın turbinləri Bakıya gətirilib".

C. Abdullayevin sözlərinə görə, qarşıdakı illərdə bir sıra böyük meqalayihələrin icrasına başlanılacağı nəzərdə tutulub. Eyni zamanda, sevindirici haldır ki, bütün bu təşəbbüslərin reallaşması üçün dövlət tərəfindən vəsait ayrılmayacağı və layihələrin yalnız özəl investisiya hesabına həyata keçiriləcəyi planlaşdırılıb. Adıçəkilən agentliyin direktoru bunu "yaşıl" enerjiyə keçid prosesində özəl sektora önəm verilməsi kimi dəyərləndirib.

# Qarabağ karbonsuz zonaya çevriləcək

*Bölgədə 10 su anbarı və 17 çay var*

**İşğaldan azad edilmiş ərazilər şirin su ehtiyatlarının zənginliyi ilə seçilir. Bunu Kənd Təsərrüfatı Nazirliyinin torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri Firudin Tağıyev ötən həftə Bakıda keçirilmiş "Su idarəetmə sistemlərinin iqlimə dayanıqlı kənd təsərrüfatında rolu: COP29 dəyirmi masa müzakirələri" zamanı bildirib. Onun sözlərinə görə, həmin ərazilərdə 10 su anbarı və 17 çayın olması şirin su ehtiyatlarımızı daha da əlçatan edir.**

Ölkə Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş əraziləri "yaşıl" enerji zonası elan etdiyini xatırladan nazirlik rəsmisi bildirib ki, Azərbaycan hökuməti bu ərazilərin 0 emissiya zonası elan edilməsi ilə bağlı öhdəlik götürüb. Ona görə də bu ərazilərdəki hidroenerji ehtiyatlar, eyni zamanda, suyun idarə edilməsi əsas hədəfdir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# IDEA-nın növbəti təmizlik aksiyası



Sentyabrın 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın və IDEA könüllülərinin iştirakı ilə təmizlik aksiyası keçirilib.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən aksiya Kürdəxanı ərazisində yerləşən gölün sahilində təşkil edilib.

Tədbirin əsas məqsədi cəmiyyət tərəfindən ətraf mühitin təmizliyinə riayət olunmasını təbliğ etmək, ölkənin biomüxtəlifliyində xüsusi rola malik ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və insanları təbiətin mühafizəsi uğrunda səylər göstərməyə cəlb etməkdir.

Qeyd edək ki, Xəzər dənizinin və Qafqaz regionunun digər su hövzələrinin unikal biomüxtəlifliyinin mühafizəsi məqsədilə IDEA çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsinə və bərpasına yönəlmiş müntəzəm tədbirlər təşkil edir.

IDEA İctimai Birliyi hamını bir daha planetimizin qarşılaşdığı çoxsaylı problemlərin həlli, indiki və gələcək nəsillərin rifahı naminə birləşməyə və hərəkətə keçməyə, təbiətin bizə bəxş etdiyi nemətlərə həssas yanaşmağa çağırır.

# Mətbuat Şurasının "qaynar xətt"inə müraciət daxil olmayıb

**Mətbuat Şurasının Milli Məclisə növbədənkənar seçkilərlə bağlı "qaynar xətt"i fəaliyyətini başa vurub.**




Bu barədə XQ-yə Mətbuat Şurasından bildirilib.

Vurğulanıb ki, gün ərzində səsvermə prosesini işıqlandıran media subyektlərinin təmsilçilərindən MŞ-nin bu rejimdə işləmiş (012) 441 35 96 şəhər, (050) 242 09 91 və (055) 789 85 03 mobil nömrələrinə heç bir zəng daxil olmayıb. Qeyd edək ki, "qaynar xətt" rejimi səsvermənin başlandığı saat 08:00-dan, başa çatdığı 19:00-dək jurnalistlərin ixtiyarında olub.

Mətbuat Şurasının İdarə Heyətinin jurnalist və müşahidəçi kimi qeydiyyatdan keçmiş üzvləri də paytaxtdakı və bölgələrdəki seçki məntəqələrində jurnalistlərə prosesi işıqlandırmaları üçün yaradılmış şəraiti müşahidə ediblər.

MŞ sədri Rəşad Məcid 35 saylı Xətai üçüncü seçki dairəsinin 5-ci, 6-cı, 7-ci məntəqələrində, MŞ sədrinin müavinləri Səadət Məmmədova 118 saylı Ağdam-Xocalı seçki dairəsinin 32 saylı seçki məntəqəsində, Vüqar Zifəroğlu 17 saylı Yasamal 3-cü seçki dairəsinin 18 saylı məntəqəsində, İH üzvləri - Əflatun Amaşov 21 saylı Birinci Nəsimi seçki dairəsinin 17 saylı məntəqəsində, Ceyhun Musaoğlu Abşeron rayonu 50 saylı üçüncü seçki dairəsinin 4 saylı məntəqəsində, Yadigar Məmmədli 7 saylı Səbail seçki dairəsinin 11, 12, 13, 14 və 15 saylı məntəqələrində, Müşfiq Ələsgərli həmin dairənin 23 saylı məntəqəsində, Hacıbəy Heydərli 8 saylı Binəqədi Birinci seçki dairəsinin 16 saylı məntəqəsində, Aqil Ələsgər 70 saylı Neftçala seçki dairəsinin müxtəlif məntəqələrində prosesi izləyiblər. Onlar hansısa pozuntu faktı aşkarlamayıblar.

**XQ**

# Azərbaycan "Moskva kino həftəsi"ndə

**Bu yaxınlarda Rusiyada təşkil edilən "Moskva kino həftəsi"ndə Azərbaycan da təmsil olunub. Bu ölkənin Yaradıcı Sənayelər Agentliyinin təşkilatçılığı ilə reallaşan "Kino həftəsi"nə ABŞ, Türkiyə, Hindistan, Çin, Cənubi Koreya, Qazaxıstan, Özbəkistan, Birləşmiş Ərəb Əmirliyi və digər ölkələr də qoşulublar.**




Beynəlxalq tədbirdə iştirak edən Mədəniyyət Nazirliyinin yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov XQ-yə təəssüratlarını belə ifadə etdi:

– Bu layihə beynəlxalq peşəkar kino ictimaiyyəti ilə Rusiya kino sənayesinin liderləri arasında qarşılıqlı əlaqələrin yaradılması üçün əlverişli platforma rolunu oynayır. İlk dəfə gerçəkləşən "Moskva kino həftəsi" çərçivəsində iştirakçılar yaradıcı sənaye sahəsi üzrə müxtəlif ölkələrin aparıcı layihələri ilə tanış olmaq imkanı da əldə ediblər. Burada 25 ölkədən beynəlxalq kino komissiyalarının nümayəndələri, kino sənayesinin rəhbər şəxsləri və ekspertləri iştirak edirdi. Həftə ərzində bir çox panel müzakirələr təşkil olundu. "Yaradıcı iqtisadiyyat" mövzusunda keçirilən panel müzakirələrə biz də qatıldıq. Müzakirələrdə Azərbaycanda Mədəni və Yaradıcı Sənayelərin (MYS) qrantlar və təhsil proqramları vasitəsilə strateji inkişafına xüsusi diqqət ayrılması barədə danışdıq. Bundan başqa, müxtəlif ölkələrin yaradıcı sənaye nümayəndələri ilə görüşlərimiz oldu. Görüşlərdə qrant və təhsil proqramları, gənc startapçılara dəstək göstərən Yaradıcı Mərkəzin fəaliyyəti, ölkənin MYS sektorunu gücləndirmək və qlobal səviyyədə əməkdaşlıqlar müzakirə edildi.

**Nazirlik rəsmisi Rusiya kino mütəxəssilərinin ölkəmizdə film və serial çəkilişləri sahəsinə marağından danışaraq söylədi ki, bu ölkənin şirkətləri Azərbaycana film və serial çəkmək üçün gəlirlər:**

– Hər zamankı kimi əməkdaşlığa hazırıq. Ölkəmizdə yaşayan rusdilli əhali arasında çox populyar olan köhnə filmlərin üzərində yenidən işlənilə bilər. Rusiyanın animasiya filmləri azərbaycanlı tamaşaçılar arasında populyardır.

**Müsahibimiz əlavə etdi ki, zəngin proqramı olan "Kino həftəsi" 6 gün ərzində iştirakçı ölkələrin müvafiq mövzuda təcrübə mübadiləsi aparması baxımından böyük əhəmiyyət kəsb edib:**

– Bu gün yaradıcı mədəniyyət sahəsi dünyada dinamik inkişaf edir. Kino, teatr, musiqi, incəsənət, ədəbiyyat və digər bu kimi sahələrdən ibarət yaradıcı sahələrin həm də biznes imkanları var. Ölkəmizdə də bu yöndə əsas məsələlər diqqətdə saxlanılır və lazım olan bütün addımlar atılır. "Kino həftəsi" və digər bu kimi beynəlxalq platformalar iştirakçı ölkələrin aparıcı layihələrindən məlumatlı olmaq imkanı verir.

***Ceyhun BALABƏY***
***XQ***

# Kəlbəcərin "Bal kimi süfrə"si

**Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondunda işğaldan azad edilmiş Kəlbəcərə həsr olunan "Bal kimi süfrə" filminin təqdimatı olub.**

Filmin ssenari müəllifi, Əməkdar jurnalist Firuzə Nadir bildirib ki, "Bal kimi süfrə" sənədli filmi Kəlbəcərin timsalında işğaldan azad olunan torpaqlara qayıdışa, kəlbəcərlilərin işğal dövründə göz bəbəyi kimi qoruduğu milli dəyərlərə həsr olunub. Onun sözlərinə görə, Kəlbəcər füsunkar təbiətə, zəngin təbii sərvətlərə, özünəxas mətbəx və məişət mədəniyyətinə malik rayondur. Burda sanki təbiətin özü də insanlara zəngin və rəngarəng bir mətbəx, möhtəşəm bir süfrə bəxş edib. Ermənilər 30 ildə Kəlbəcərin də sərvətlərinə sahib çıxıb, onun məşhur balını da mənimsəyərək Ermənistanın adı ilə dünya bazarına çıxarıb.



Artıq kəlbəcərlilər də, onların süfrələrinin bal kimi neməti də öz yurduna qayıdıb. Filmin məqsədi bu qayıdışı göstərmək, kəlbəcərlilərin nəsildən-nəslə yaşatdıqları adət-ənənələri, milli dəyərləri təbliğ etməkdir.

***XQ***

**İsmayıl Hacıbəyov – 75**

# Hacıbəylilər şəcərəsini zənginləşdirmiş bəstəkar

**Onun haqqında düşündükcə, nədənsə, atası Soltan Hacıbəyovun "Karvan" simfonik lövhələri gözlərim önündə canlandı. Düz 18 il əvvəl "Dünya duracaq yer deyil", – deyərək harasa tələsən karvan ünlü sənətkarlar nəslinin son yadigarını da aparıb, əbədiyyətə qovuşdurub. Amma zaman və sənət karvanının ötdüyü yerlərdə cəmi 57 il yaşamış bəstəkar, Əməkdar incəsənət xadimi İsmayıl Hacıbəyovun da silinməz izləri qalıb.**



Mayası musiqi ilə yoğrulmuş yeniyetmə İsmayılın sənət yanğısı onu Azərbaycan Dövlət Konservatoriyasına gətirib. Orada professor Qara Qarayevin tələbəsi olub, az müddətdə peşəkarcasına yazdığı musiqiləri ilə nəslinin şöhrət çələnginə solmaz güllər taxıb. Dahi Üzeyir bəyin qardaşı nəvəsi olan İsmayıl Hacıbəyov ömrü boyu konservatoriyada çalışıb. Hətta ötən əsrin təbəddülatlarla dolu olan son dövrlərində, klassik musiqi sənətinin bir növ qiymətdən düşdüyü vaxtda o, əmisinin, atasının nəfəsi ilə qızınmış doğma ocağını – konservatoriyanı tərk etməyib.

Bəstəkar kimi formalaşmasında Soltan Hacıbəyovun, Qara Qarayevin böyük zəhməti olduğunu daim vurğulayan İsmayılın yaradıcılığı çoxşaxəli idi. Hələ tələbə olarkən müxtəlif janrlı əsərlər yaradıb. Onun simfonik və kamera əsərləri, piano üçün yazdığı musiqilər diqqət çəkib. İsmayıl Hacıbəyov böyük Üzeyir bəydən gələn ənənəni özünəməxsus şəkildə davam və inkişaf etdirib. Mütəxəssislər onun yaradıcılığı mədəniyyət tariximizdə bir hadisə hesab ediblər. Neçə-neçə əsərini Azərbaycan musiqisinin incisi kimi dəyərləndiriblər.

Gəlin, haqqında söylənilənləri unudulmaz bəstəkarın doğum günündə bir daha xatırlayaq.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Xalq artisti, bəstəkar Arif Məlikov: "Bütöv bir əsrdir ki, Hacıbəyov familiyası musiqinin, musiqi mədəniyyətinin, incəsənətin, xalq məhəbbətinin, ölməzliyin, keçmişin, bugünün və gələcəyin rəmzi kimi səslənir. Həqiqətən də, adlara fikir verəndə bu soyadın məna yükü daha da artır: dahi Üzeyir bəy, Zülfüqar, Niyazi, Çingiz, Soltan, İsmayıl... O, 1949-cu ildə Üzeyir Hacıbəylinin ölümündən bir il sonra (əgər belə demək olarsa) dünyaya gəlib. Qəribədir ki, atası Soltan Hacıbəyov dünyasını dəyişməmişdən bir neçə saat əvvəl mənə öz kabinetində belə dedi: "Gözün İsmayılın üstündə olsun". Mən çox fərəhlənirdim ki, bu tanınmış və məşhur nəslin belə istedadlı nümayəndəsi ilə uzun illər dostluq etdim".

Bəstəkar, Xalq artisti, professor Sevda Mirzə qızı İbrahimova: "İsmayıl çox təmiz adam olub. Sənətdən başqa ayrı düşüncəsi yox idi. Bir devizi var idi – "Əsər o zaman ölməzlik qazanır ki, böyük mübarizələrin nəticəsində yaransın". O, təkcə tələbələrinə yox, həmkarlarına da nümunə və örnək idi. Hələ də İsmayılı soruşanlar, axtaranlar var. Heç kim onun vəfat etdiyinə inanmır. Bu da görkəmli bəstəkarımızın əbədiyaşarlığına bir mesajdır".

Bəstəkar Xəyyam Mirzəzadə: "İntellektuallığı ilə seçilən sənətkarların əsərlərinin müqəddəratı həmişə qəribə olur. İsmayılın isə elə əsərləri var ki, hələ üzə çıxmayıb. O, həmişə iş prosesində idi. Hətta bir müddət filarmoniyada musiqi rəhbəri işləyib, amma heç zaman bu fürsətdən bəhrələnməyib. Bir dəfə də olsun bu böyük səhnədə öz əsərini ifa etdirməyib. Bu da təvazökarlığına bir misaldır".

Musiqişünas Vəfa Abbasova: "İsmayıl Hacıbəyovun "Memorial" kantatası bəstəkarın böyük yaradıcılıq tapıntısı olan texniki vasitələrin kompleksli istifadəsi, onların musiqi obrazları və əsərin dramaturgiyasının tərkib hissələri kimi çıxış etməsi və nəticədə, hüdudsuz musiqi sferası effektinin yaranması, maraqlı tembr tapıntıları və təzadları, emosional baxımdan çox səmimi, insani ümumbəşər xeyir və şər anlamları üzərində düşünməyə vadar edir. "Memorial" kantatası Azərbaycan musiqi sənətinin ən dəyərli nümunələrindən biridir".

Bu isə onun həyat və sənət yoldaşı, pianoçu və bəstəkar, Musiqi Akademiyasının professoru, Xalq artisti Ülviyyə Hacıbəyovanın xatirəsidir: "İsmayılın təkcə həmkarlarının, dostlarının, yaxınlarının deyil, tələbələrinin də qəlbində böyük məhəbbəti, sevgisi olub. Bu hörməti, bu etibarı hər kəs qazana bilmir. İsmayıl bütün ömrü boyu Hacıbəylilər nəslinin övladı olduğunu və bu doğma ocaqda işləməyin məsuliyyətini heç vaxt unutmayıb. Xüsusilə də soyadı üçün çox həyəcan keçirirdi. Haradasa bir afişada, qəzet məqaləsində, kitabda öz familiyalarını oxuyanda çox sevinirdi. Mən onu başa düşürdüm. Üzərində dahi Üzeyirin, atası Soltanın, maestro Niyazinin məsuliyyəti var idi".

İsmayıl Hacıbəyovun simfonik orkestr üçün bəstələdiyi "Naxışlar" fantaziyası xüsusilə cəlbedicidir. Digər əsərləri – "Albomdan səhifələr" süitası, piano üçün "Üç idilliya", fleyta və simli orkestr üçün "Konsertştük", libretto müəllifi olduğu "Füruzə" operası, fleyta, klarnet və piano üçün "İstəklər", nəfəs alətləri üçün kvintet və sairə onun adının musiqi mədəniyyəti tariximizə düşməsini təmin edib.

Maraqlıdır ki, o həm musiqi ladları ilə gözəl əsərlər yaradan rəssam, həm də fırça və rənglərlə dəyərli portretlər cızan rəssam olub. Böyük ustalıqla Üzeyir bəyin, Qara Qarayevin, atası Soltan Hacıbəyovun, Dmitri Şostakoviçin, həyat yoldaşı Ülviyyə xanımın, eləcə də özünün avtoportretini çəkib, obrazları yağlı boya ilə kətan üzərinə köçürüb. Qəribədir ki, həmin gözoxşayan əsərlərə baxanda adamın qulağına sanki onun könüloxşayan musiqisinin səsi gəlir. Təbiət mənzərələri, natürmortları da eyni hisslər yaradır.

İsmayıl Hacıbəyov 57 illik ömrünün hər gününü mənalı keçirib, sənətə xidmət edib. Buna görə də ürəklərdə özünə taxt qura bilib. Ruhu şad olsun.

***Ə.ƏLİYEV***
***XQ***

# Hind turistlərin Bakıya marağı yüksəlib

**Bakı hindistanlı turistlərin seçimlərində populyarlıq qazanıb. "Skyscanner" platformasının bu il üzrə yayımladığı səyahət trendləri hesabatında qeyd olunur ki, şəhər bu il axtarışlar siyahısında 3-cü yerdə qərarlaşıb.**

**Dövlət Turizm Agentliyindən XQ-nin sorğusuna cavab olaraq bildirildi ki, sözügedən platformada Bakı şəhəri üzrə axtarış marağı 438 faiz artıb. Birinci və ikinci sırada isə müvafiq olaraq Vyetnamın Da Nanq, Qazaxıstanın Almatı şəhəri yer alır:**

– Hindistandan Bakıya aviareyslərin qiymətlərində də 22 faiz ucuzlaşma qeydə alınıb – deyə Agentlikdən məlumat verdi. Bu da paytaxtımızı hindistanlı turistlər üçün əlçatan istiqamətlərdən birinə çevirir. Platformanın hesabatına görə, hindistanlı səyahətçilərin 86 faizi bu il 2023-cü illə müqayisədə eyni sayda və ya daha çox xaricə səyahət etməyi, 63 faizi səyahətə ötən ildən daha çox büdcə ayırmağı planlaşdırır. Onların 43 faizi destinasiyanın cəlbediciliyini və atmosferini mühüm amil kimi qiymətləndirirlər. Səyahət zamanı ediləcək ən məşhur fəaliyyətlərə gəldikdə isə 49 faiz alış-veriş, 45 faiz tarixi turlar və 38 faiz yerli yeməklərin dadına baxmaq prioritet istiqamətlərdəndir.

Agentlikdən onu da söylədilər ki, bu ilin yanvar–iyul aylarında Azərbaycana səfər edən Hindistan vətəndaşlarının sayında ötən ilin eyni dövrü ilə müqayisədə 151 faiz artım qeydə alınıb. Qeyd olunan müddət ərzində 139 min 109 nəfər hindistanlı səyahətçi ölkəmizə səfər edib.



Xatırladaq ki, 2023-cü ilin 1-ci yarımilliyində Hindistandan Azərbaycana 47 min 670 nəfərdən çox ziyarətçi gəlmişdi. Bu ölkənin vətəndaşlarına Azərbaycana səyahət üçün sadələşdirilmiş "e-visa" sistemi tətbiq olunur. Hazırda Delhi–Bakı–Delhi istiqamətində "Azərbaycan Hava Yolları" birbaşa uçuşlar həyata keçirir.

***Ceyhun ALIŞLI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 189 (30593) 2 sentyabr 2024-cü il, bazar ertəsi

# “Qala” Qoruğu beynəlxalq Açıq Hava Muzeyləri Assosiasiyasına üzv seçilib




**Dünyanın açıq səma altında yaradılmış nadir muzeylərindən olan “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğu Arxeologiya üzrə Beynəlxalq Açıq Hava Muzeyləri Assosiasiyasına üzv qəbul edilib.**

Bununla bağlı mətbuata “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən məlumat verilib. Qeyd edilib ki, Danimarka Krallığında təsis edilən EXARC təşkilatının hazırda 432 üzvü var. Arxeologiya üzrə Açıq Hava Muzeylərinin Beynəlxalq Assosiasiyası, eyni zamanda Beynəlxalq Muzeylər Şurasının tərəfdaşı və Avropa Muzey Təşkilatları Şəbəkəsinin üzvüdür.

İdarənin məlumatına görə, Qala Qoruğunun bu təşkilatda təmsil olunması Azərbaycanın əsrlər boyu məişətinin və yaşam tərzinin, eyni zamanda tarixinin və mədəniyyətinin beynəlxalq səviyyədə təbliğ edilməsi, həmçinin Qalanın dünyada tanıdılması baxımından əhəmiyyətlidir. Qala Qoruğu barədə məlumatlar artıq təşkilatın rəsmi saytında yerləşdirilib.

Qeyd edək ki, 1988-ci ildə yaradılan “Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğu eramızdan əvvəl III minillikdən bu günə qədər Qala kəndində yaşayan əhalinin həyat tərzini, kurqanlar, sərdabələr, yaşayış evləri, qəsr, məscidlər və hamamlar da daxil olmaqla, ərazidə mövcud tarixi abidələri və artefaktları qoruyub-saxlamaq məqsədilə yaradılıb. Qədim sənət növləri burada orta əsrlərdəki kimi bu gün də fəaliyyət göstərir.

“Qala” Dövlət Tarix-Etnoqrafiya Qoruğu “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən idarə olunur.

*FH ÜQUQQIZI*
*XQ*

## “Qarabağ”ın Avropa oyunlarının təqvimi

**UEFA Avropa Liqasında Liqa mərhələsinin təqvimi açıqlanıb.**

Azərbaycanın turnirdəki yeganə təmsilçisi “Qarabağ”ın da oyunlarının vaxtı müəyyənləşib.




Ağdam klubu əsas mərhələyə sentyabrın 26-da İngiltərədə “Tottenhem”ə qarşı oyunla start verəcək. Oktyabrın 3-də “Malmö” (İsveç), 24-də “Ayaks”la (Niderland) oynayacaq. Noyabrın 7-də “Bodo Qlimt” (Norveç), 28-də “Lyon” (Fransa), dekabrın 12-də “Elfsborq”la (İsveç) qarşılaşacaq. Ağdam klubu yanvarın 23-dəki qarşılaşmanı “Styaua”ya (Rumıniya) qarşı keçirəcək. Yanvarın 30-da isə “Olimpiakos”la (Yunanıstan) oynayacaq.

Qeyd edək ki, bu mərhələdə ilk 8 yeri tutanlar 1/8 finala adlayacaq, 9-24-cü pillələri tutanlar isə pley-offda oynayacaqlar.

## Senanın çirkliliyi yarışı pozdu



**Fransanın paytaxtı Parisdə keçirilən Yay Paralimpiya Oyunlarında triatlon yarışı təxirə salınıb.**

Sentyabrın 1-də keçirilməli olan yarış Sena çayında suyun aşağı keyfiyyətinə görə baş tutmayıb. “World Triathlon”un yaydığı məlumata görə, sentyabrın 2-nə qədər suyun keyfiyyəti normalara cavab verərsə, yarışın reallaşması mümkün ola bilər.

Xatırladaq ki, Paris Olimpiadasında da Sena çayında keçirilməli olan triatlon yarışları suyun çirkli olması səbəbindən təxirə salınmışdı.

## Şəhriyar 17-ci, Teymur 31-cidir



**Beynəlxalq Şahmat Federasiyasının sentyabr ayı üçün reytinq cədvəli açıqlanıb. Azərbaycan təmsilçilərindən 2 pillə irəliləyən Teymur Rəcəbov (2700) 31-cidir. Şəhriyar Məmmədyarovun (2733 xal) isə mövqeyi dəyişməyib. O, hazırda 17-ci pillədədir.**

Siyahıya norveçli Maqnus Karlsen (2832) başçılıq edir. ABŞ şahmatçıları Hikaru Nakamura (2802) 2-ci, Fabiano Karuana (2798) 3-cü yeri tuturlar.

Qadın şahmatçılarımızdan Günay Məmmədzadə (2433) 2 pillə geriləyib, 33-cü sırada qərarlaşıb. Gövhər Beydullayeva (2395) 53-cü, Xanım Balacayeva (2384) 62-ci, Ülviyyə Fətəliyeva (2369) isə 68-ci yerdədir. Siyahıya çinli Yifan Hou (2633) başçılıq edir. İkinci pillədə Venyun Yu (Çin, 2563), üçüncü sırada Tan Zonqyi (Çin, 2551) yer alıb.

*LA ZAD*
*XQ*



## İspaniyada 6 min yaşı olan körpü

**Cənubi Florida Universitetinin amerikalı arxeoloqları Aralıq dənizində İspaniyanın Mayorka adasında su basmış mağarada qədim daş körpü aşkarlayıblar. Tapıntı bu ərazilərdə insan məskunlaşmasının nə vaxt başlandığını aydınlaşdırmağa kömək edib.**

Genovis adlandırılan mağarada aşkarlanan körpünün uzunluğu 6 metrdən çoxdur. Alimlərin fikrincə, bu kəşf onu göstərir ki, ərazidə məskunlaşan insanlar yeraltı su ehtiyatlarından məlumatlı olublar və onlardan istifadə etmək üçün infrastruktur yaradıblar. Qeyd edək ki, Mayorka Aralıq dənizində 6-cı ən böyük adadır.

İlk araşdırmalara görə, Mayorka sahillərində məskunlaşma 9 min il əvvəl baş verib. Lakin bu fərziyyəni təsdiqləyən etibarlı sübut tapılmayıb. Tədqiqatçılar kömür, kül və sümüklərdən istifadə edərək belə bir fikir irəli sürüblər ki, adada ilk məskunlaşma təqribən 4 min il əvvəl başlanıb. İndisə körpüdəki mineral və boya izlərini təhlil edən elm adamları müəyyənləşdiriblər ki, konstruksiya 6 min il əvvəl tikilib.

Arxeoloqların fikrincə, körpünün aşkarlanması Aralıq dənizinin insan məskəni ilə bağlı ümumi təsəvvürdəki boşluğu doldurmağa kömək edəcək.

*SE LAY*
*XQ*

## Nüvə batareyası 50 il fasiləsiz enerji verəcək

**ABŞ-ın “Kronos Advanced Technologies” və “Yasheng Group” şirkətləri Nikel-63 adlı kiçik nüvə batareyası hazırlayıb. Yeni batareya müxtəlif sektorlarda, o cümlədən tibbi avadanlıq, məsafədən zondlama, kosmik tədqiqatlar və hərbi ehtiyaclar üçün istifadə ediləcək. Bu sahələrdə uzunmüddətli enerji saxlayan batareyalara ehtiyac vardı.**



Alimlər hesab edirlər ki, yüngül və uzunmüddətli nüvə batareyaları tezliklə süni ürəklər və koxlear implantlarda tibbi cihazları enerji ilə təchiz edəcək. Uzun xidmət müddəti, etibarlılığı və təhlükəsizliyi onu tez-tez batareyanın dəyişdirilməsinin mümkün olmadığı tibbi tətbiqlər üçün ideal hala gətirir.

Bundan əlavə, aerokosmik və müdafiə sənayesi bu cür batareyalardan uzunmüddətli kosmik uçuşlar və Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələrinin missiyaları üçün istifadə edə biləcək. Smartfonlar, noutbuklar və digər qadcetlər kimi cihazlarda istifadə edildikdə, onlar daimi doldurulmaya ehtiyac olmadan onilliklər ərzində problemsiz işləməyə zəmanət verəcək.

*PÜNHAN*
*XQ*

## Qoz-kişmişi qat əriyə – qoy məlhəm olsun ürəyə

**Dietoloqlar haqqında söhbət açılan qarışımı immuniteti və ürəyi gücləndirmək üçün əla vasitə hesab edirlər. Bildirirlər ki, məlhəmin tərkibində olan ərik qurusu, kişmiş və qozda çoxlu kalium ionları var. Kalium isə ürəyin ritmik işləməsi üçün çox vacib elementdir.**



Ürək fəaliyyətini gücləndirən məlhəmi hazırlamaq üçün 3 limon, 200 qram gavalı, 200 qram kişmiş, 200 qram ərik qurusu, 200 qram qoz, 100 qram yemişan və 100 qram itburnu meyvəsi lazımdır.

Bütün məmulatlar əl dəyirmanında üyüdüldükdən sonra qarışıma 250 qram bal əlavə edilir və soyuducuya qoyulur. Hazırlanmış məlhəm 10 gündən sonra istifadəyə hazır olur.

Dietoloqlar dadlı, xoş ətirli və sağlamlıq üçün vacib olan bu məlhəmdən hər gün acqarına 1 yemək qaşığı qəbul etməyi tövsiyə edirlər.

*ZB AYRAM*
*XQ*

## Bakıda – 37, rayonlarda – 38 C°

**Milli Hidrometeorologiya Xidməti bildirir ki, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26° isti, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 759 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 65-75 %, gündüz 40-50 faiz olacaq.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Şərq küləyi gündüz bəzi şərq rayonlarında arabir güclənəcək.

Havanın temperaturu gecə 18-23°, gündüz 33-38°, dağlarda gecə 13-18°, gündüz 21-26° isti olacaq.

*QQ ASIMOV*
*XQ*



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3729
SİFARİŞ 1868
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır 00:00